RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 21 (8614) ŞƏNBƏ, 30 yanvar 2021-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az





## Qarabağ milli dirçəlişin yeni rəmzi olacaq

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə işğal altındakı torpaqlarımızın, o cümlədən Şuşa şəhərinin azad edilməsindən bir neçə ay ötür. 44 günlük Vətən müharibəsi gedişində şəhər və kəndlərimizin düşməndən təmizlənməsi ilə bağlı xoş müjdələr indi də o əzəli-əbədi yurdlarımızın dirçəlişi yönündə görülən tədbirlərin sevinci ilə davam edir.**

### Qarabağın tacı

Yanvarın 27-də dövlət başçısı İlham Əliyev Şuşa rayonuna Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsini təyin etdi. Qeyd edək ki, düşməndən təmizlənmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsi institutu yanvarın 19-da yaradılıb. İlk təyinatın məhz Şuşa rayonuna olması isə heç də təsadüfi deyil. Şuşa zəfərimizin rəmzidir, yenilməzlik nişanəsi, milli ruhumuzun sığınacağıdır. Azərbaycan Prezidenti Şuşa rayonuna xüsusi nümayəndə təyin edilmiş Aydın Kərimovu videoformatda qəbul edərək tapşırıq və tövsiyələrini verərkən bu şəhərin tarixi keçmişimiz, bu günümüz və gələcəyimiz üçün müstəsna əhəmiyyətini bir daha vurğulayıb: "Şuşa Qarabağın tacıdır, Şuşa təkrarolunmaz şəhərdir. Şuşanın yerləşməsi, təbiəti, havası, iqlimi, tarixi abidələri, dini abidələrimiz, şəhərin memarlıq ansamblı bizim milli sərvətimizdir. Şuşanı biz qorumalıyıq, qoruyacağıq. Biz Şuşaya qayıtmışıq və bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaqdır. Necə ki, bütün dövrlərdə Şuşa həmişə Azərbaycan şəhəri olmuşdur və ermənilərin saxtakarlıq cəhdlərinə baxmayaraq, bütün dünya Şuşanı məhz Azərbaycan şəhəri kimi tanıyıb və qəbul edib".

Vətən müharibəsinin gedişində Azərbaycan Ordusunun əsas hədəfi Şuşa idi. Bu qədim şəhər sıldırım qayalıqlarından qalxaraq yüngül silahlarla tankın, topun üzərinə atılan qəhrəman övladlarımızın şücaəti sayəsində əsarətdən qurtuldu. Şuşanın azad edilməsindən sonra düşmən diz çöküb faktiki kapitulyasiya aktına imza atmaq məcburiyyətində qaldı.

Prezident İlham Əliyev Şəhidlər xiyabanından xalqımıza Şuşanın azadlığı müjdəsini çatdırarkən bu tarixi məkanın tezliklə dirçəldiləcəyini bəyan etmişdi. Artıq o günlər də gəldi. Azərbaycan Prezidenti bu şəhəri ordumuzun gücü ilə azad etdiyi kimi, şəhərin bərpası, yenidən qurulması, abadlaşdırılması və tarixi Azərbaycan şəhəri olaraq bütün dünyada yenidən tanıdılması ilə bağlı da dəqiq, konkret planlara malikdir.

Şuşanın bərpası, inkişafı ilə əlaqədar bütün işlərin sistemli qaydada aparılması, şəhərin tarixi simasının saxlanılması, burada Şuşaya yad olan hər hansı bir tikiliyə yol verilməməsi dövlət rəhbərimizin qarşıya qoyduğu əsas vəzifələrdir. Bu məqsədlə artıq bir müddət bundan əvvəl Şuşaya mütəxəssislərdən ibarət böyük bir qrup ezam edilmişdir. Onlar bir neçə gün Şuşada qalaraq, lazımi təftiş, təhlil işlərini aparmış və Azərbaycan Prezidentinə məruzə etmişlər.

Ardı 3-cü səh.

◆ **İlin uğurlu yekunları**

## İlham Əliyev tarixi abidələrimizi də işğaldan azad etdi

**Şanlı Azərbaycan Ordusunun 44 günlük zəfər yürüşü doğma Qarabağımızın azadlığa qovuşdurulması ilə yanaşı, tarixi, mədəni irsimizi də erməni vandallarından xilas etdi. Müzəffər Ordumuz tarix səhifələrimizi qaralamağa, silməyə, saxtalaşdırmağa, təməlini laxlatmağa çalışanlara layiqli dərs verərək yerinə otuzdurdu.**



İşğalçılar bu illər ərzində yer adlarımızı, toponimlərimizi dəyişdirib, uydurma adlar qoyub, tariximizə iddia edə bilmədikləri məqamlarda isə barbarlığa əl ataraq maddi-mədəni, dini abidələrimizi vəhşicəsinə dağıdıblar. Erməni millətçiləri xalqımızın tarixi yaddaşını yox etmək, qədim Azərbaycan torpaqlarında türk-müsəlman mədəniyyətinin izlərini silmək üçün hər cür namərdliyə əl ataraq çirkin əməllərini illər boyu davam etdiriblər. 30 il müddətində işğal altında saxladıqları Qarabağda dünyada misligörünməmiş talançılıqla məşğul olub, bütün tarixi, dini abidələrimizi məhv ediblər.

### Vandallar erməniləşdirmək mümkün olmayanları dağıdıblar

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən təsbit olunmuş siyahıya əsasən, işğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olduğu göstərilir. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si ziyarətgahdır.

Ermənilər ələ keçirdikləri ərazilərdə 12 muzeyi və 6 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət edərək yandırıblar. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı talan olunub, 44 məbəd və 9 məscid təhqir edilib. Dağıdılan və yandırılan 927 kitabxanada 4 milyon 600 min kitab və misilsiz əlyazma nümunələri məhv edilib.

Ermənilər tərəfindən ən çox dağıntılara və tələfata məruz qalanı islam dini abidələri, yəni məscidlər, türbələr və digər inanc yerləri olmuşdur.

Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınmışdır. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Ermənilər dini dəyərlərimizə hörmətsizlik edərək Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla azərbaycanlıların heysiyyətləri ilə oynayıblar.

Mütəxəssislər, işğal olunmuş ərazilərdə qalan və islam dövrünə aid olan tarixi abidələrin ermənilər tərəfindən xüsusi amansızlıqla dağıdılmasının əsas səbəbini onların üzərində müsəlman epiqrafiyası ilə yazıların olması ilə izah edirlər. Bildirirlər ki, bu abidələri erməniləşdirmək və qeyri-Azərbaycan abidələri kimi təqdim etmək mümkün olmadığı üçün onlar bu cür vəhşiliyə əl atıblar.

### Qarabağ Azərbaycanın etnoqrafiya xəzinəsidir

İşğal altında olmuş torpaqlarımızda Azərbaycan xalqına məxsus çoxlu tarixi dini abidə mövcud olub. Müxtəlif qədim türbələrin olduğu Cəbrayıl rayonundakı Tumas-ata abidəsi bütpərəstlik dövrünün yadigarıdır. Tarixi Xudafərin körpüsü də Cəbrayıl rayonunda yerləşir.

Dünyanın ən qədim insan məskənlərindən olan, qədim dövrün mədəni abidələri kimi UNESCO-nun dünya irsi siyahısına daxil edilən Azıx və Tağlar mağaraları Füzuli rayonunun ərazisindədir.

İşğaldan əvvəl Şuşada dövlət tərəfindən qorunan 248 tarixi abidə mövcud olub. Məşhur Yuxarı Gövhər ağa Məscidi, Qala divarı (uzunluğu 8 kilometr), Pənah xanın sarayı, Natəvanın evi, İbrahim xanın bürcü, İbrahim xanın qəsri, Vaqifin məqbərəsi Şuşa memarlığının incilərindən sadəcə bir neçəsidir.

Ardı 5-ci səh.

## Zəfər salnaməsi

### Azərbaycan tarixinin 44 şərəf günü



**Azərbaycan xalqı üçün geridə qalan 2020-ci ilin ən böyük hadisəsi ərazi bütövlüyünün bərpası oldu. Sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu təcavüzkar Ermənistanı məğlub edərək işğal siyasətinə son qoydu. Bu savaş Müzəffər Ali Baş Komandan İlham Əliyevin şərtləri əsasında düşmənin kapitulyasiyası ilə başa çatdı.**

### İlham ƏLİYEV: "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq"

44 gün davam edən müharibədə 30 ilə yaxın idi ki, işğal altında olan əzəli torpaqlarımız - Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, yüzlərlə kənd, strateji yüksəkliklər işğaldan azad edildi. Hər bir kəndin, qəsəbənin, şəhərin azad olunması xalqımız tərəfindən bayram kimi, böyük sevinclə qarşılandı.

Şəhər və rayonlarımızın, kəndlərimizin bir-birinin ardınca azad edilməsi ilə Azərbaycan əsgərləri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsinə çevrildilər. Düşmənin 30 ildir qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, ordumuzun tətbiq etdiyi müharibə strategiyası müasir dövr hərb tarixinə qabaqcıl nümunə kimi həkk olundu. Ermənistan ordusu, ermənilərin özləri haqqında yaratdığı "məğlubedilməzlik" mifi darmadağın edildi. Düşmən ordusunun yüzlərlə texnikası, minlərlə canlı qüvvəsi sıradan çıxarıldı.

Eyni zamanda Azərbaycan xalqı bu müharibədə yumruq kimi birləşdi, öz rəhbərinin ətrafında səfərbər oldu.

*(Əvvəli qəzetin 8,9,10,12,17, 23 yanvar nömrələrində)*

Ardı 5-ci səh.

## Sərvəti tükənməyən AÇG



### Keçən il bu yataqlar bloku 3, 5 milyard dollardan çox gəlir gətirib

**2020-ci ildə Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsi layihəsi çərçivəsində 3 milyard 522,7 milyon ABŞ dolları həcmində gəlir əldə edilib. Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) bu məlumatı bir daha təsdiqləyir ki, AÇG-dən hasilat ahəngdar və təhlükəsiz davam edir.**

AÇG indiyədək Azərbaycanın sosial-iqtisadi inkişafına böyük töhfələr verib. Prezident İlham Əliyev bu yataqlar blokunun ölkəmizin əsas gəlir mənbəyi olduğunu dəfələrlə vurğulayıb.

AÇG 27 ilə yaxındır etibarlı tərəfdaşlıq, ekoloji baxımdan zərərsiz əməliyyatlar sayəsində təhlükəsiz işlənir və artıq 24-cü ildir fasiləsiz olaraq neft-qaz verir. Bu yataqlardan əldə olunan hasilatın həcmi bir il əvvəl 500 milyon tona çatıb.

Hazırda AÇG-də 8 platforma fəaliyyət göstərir. Bunlardan 6-sı hasilat, 2-si emal, qazın kompressiyası, suvurma və texnoloji təchizat qurğusudur. Hasilat "Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli" və "Qərbi Çıraq" platformalarından həyata keçirilir.

Ardı 5-ci səh.

## Tovuz fermerləri üzümçülüyün inkişafında maraqlıdırlar

**Kənd təsərrüfatının əsas istiqamətlərindən olan üzümçülük və şərabçılıq iqtisadi səmərəlilik baxımından ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. Bu sahə yeni yaradılan iş yerlərinin sayına və qazancına görə də sərfəlidir.**

Vaxtilə Ulu Öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi sayəsində Azərbaycanda üzümçülük sürətlə inkişaf etmişdir. Onun 1969-cu ildə Azərbaycana rəhbərliyə başladığı zaman üzüm istehsalı 272 min ton olduğu halda, sonrakı dövrlərdə görülmüş tədbirlər nəticəsində 2 milyon tonu ötmüşdür. Bu da öz növbəsində aqrar-sənaye kompleksinin inkişafına, kənd əhalisinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur.

Ardı 5-ci səh.

## Ermənistanda hakimiyyət uğrunda yeni savaş başlayır

**Ermənistanda baş nazir Nikol Paşinyanın əleyhinə keçirilən növbəti etiraz aksiyaları siyasi gərginliyi daha da dərinləşdirməklə yanaşı, xaotik vəziyyət də yaradıb.**

Belə ki, aksiya iştirakçıları hökumət binasına girməyə çalışıblar. Polisin müdaxiləsi nəticəsində 50 nəfərədək insan yaralanıb, 26 nəfər saxlanılıb, bəzilərinin isə vəziyyəti ağırdır.

Qeyd edək ki, Ermənistanın hakim "Mənim addımım" parlament fraksiyası konstitusiya dəyişiklikləri layihəsini müzakirə edərək parlamentin özünü buraxmaq hüququna sahib olmasına və növbədənkənar seçkilərin keçirilməsinə çalışır. Bu isə Ermənistan daxilində ictimai-siyasi müstəvidə gərginliyin artmasına rəvac verməklə yanaşı, həm də hakimiyyət uğrunda yeni bir savaşın başlamaqda olduğunu göstərir. Xüsusən son aylarda insanlardan dəstək ala bilməyən keçmiş hərbi xunta hakimiyyətə gəlmək üçün hərəkətə keçməyə hazırlaşır. Artıq Robert Koçaryan erkən seçkilərin keçiriləcəyi təqdirdə iştirak edəcəyini bildirib.

Seçkilərdə qalib gələcəyinə əminliyini ifadə edən R.Koçaryan deyib ki, müxalifət siyasi mübarizə yolu seçib, amma bir müddət sonra proseslər gedişatı dəyişə bilər.

Ardı 7-ci səh.

## M.M.Kajlayevin “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə Murad Maqomedoviç Kajlayev “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2021-ci il*

## SSRİ Xalq artisti Murad Kajlayevə

Hörmətli Murad Maqomedoviç!

90 illik yubileyiniz münasibətilə sizə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Sizin yaradıcılığınız sovet və Rusiya musiqi mədəniyyəti tarixində layiqli yer tutur. Çoxtərəfli və parlaq ideyalarla zəngin bir insan kimi siz müxtəlif janrlarda və üslublarda işləyərək artıq bu gün haqlı olaraq klassika hesab edilən əsərlər yaratmısınız. Siz uzun illər boyu yorulmadan təkcə bəstəkar və dirijor kimi deyil, həm də pedaqoq kimi çalışırsınız, bütün gücünüzü, dərin biliklərinizi və qiymətli təcrübənizi gənc nəslə verirsiniz.

Uşaqlıq və gənclik illərinizin keçdiyi, sənətin əsaslarını öyrəndiyiniz Azərbaycanda sizi sevir və yüksək qiymətləndirirlər. Sizə doğma olan Bakının səhnələrində keçirilmiş yaradıcılıq gecələri istedadınızın bütün pərəstişkarlarında böyük maraq doğurur, xüsusi səmimiliyi ilə fərqlənirdi. Siz Azərbaycan musiqisinin inkişafı və Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında musiqi sənəti sahəsində əməkdaşlığın möhkəmlənməsi üzrə səmərəli fəaliyyətinizə görə Azərbaycan Respublikasının “Dostluq” (“Drujba”) ordeni ilə təltif edilmisiniz.

Əziz Murad Maqomedoviç, sizi əlamətdar yubileyiniz münasibətilə bir daha təbrik edirəm, sizə möhkəm cansağlığı, firavanlıq diləyir, ən xoş arzularımı bildirirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 29 yanvar 2021-ci il*

## Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Tarix və mədəniyyət abidələri, mədəniyyət müəssisələri üzrə İşçi Qrupun iclası keçirilib

İşğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin mərkəzləşdirilmiş qaydada həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Əlaqələndirmə Qərargahı yaradılıb. Qərargahın nəzdində müxtəlif İşçi qruplardan ibarət İdarələrarası Mərkəz fəaliyyət göstərir.

AZƏRTAC xəbər verir ki, həmin qruplardan biri olan Tarix və mədəniyyət abidələri, mədəniyyət müəssisələri üzrə İşçi Qrupun əsas fəaliyyət istiqaməti işğaldan azad edilmiş ərazilərdə mədəni sərvətlərin hazırkı vəziyyətinin müəyyənləşdirilməsi, vurulmuş zərərin qiymətləndirilməsi, onların təsnifatının aparılması, habelə müvafiq qaydada bərpa işlərinin və mühafizənin təşkilidir.

Nəzərdə tutulmuş işlərin icrası ilə əlaqədar İdarələrarası Əlaqələndirmə Mərkəzinin rəhbəri, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin iştirakı ilə İşçi Qrupun iclası keçirilib. İclasda Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət naziri Anar Kərimov, təhsil naziri Emin Əmrullayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və digər şəxslər iştirak ediblər.

Qeyd olunub ki, hazırda işğaldan azad edilmiş ərazilərdə Azərbaycan xalqının milli-mədəni irsinin bərpası, mədəniyyət və dini abidələrin şəhərsalma qaydaları nəzərə alınmaqla yenidən qurulması, onların etibarlı mühafizəsinin təşkili gündəlikdə duran əsas məsələlərdir.

İclasda Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa şəhərində ardıcıl mədəni tədbirlərin keçirilməsi, xüsusilə Vaqifin poeziya günlərinin və “Xarıbülbül” festivalının təşkili ilə bağlı məsələlər də nəzərdən keçirilib.

İşçi qrupun üzvü olan dövlət qurumlarının rəhbərləri işğaldan azad olunmuş ərazilərdə həyata keçirilməsi nəzərdə tutulan işlər barədə məlumat verib, bir sıra əlavə təkliflər səsləndiriblər.

## Azərbaycanın və Rusiyanın xarici işlər nazirləri arasında telefon danışığı olub

**Yanvarın 29-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər bölgədə mövcud olan vəziyyəti və 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər.

Tərəflər ikitərəfli münasibətlərin müxtəlif aspektləri, həmçinin beynəlxalq təşkilatlarda, o cümlədən BMT, ATƏT və digər çərçivələrdə əməkdaşlıq məsələləri üzrə fikir mübadiləsi aparıblar. Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

## Beynəlxalq sülh və etimad ilinin açılışına həsr edilmiş tədbirdə Ceyhun Bayramov Qoşulmama Hərəkatının üzv ölkələri adından bəyanatla çıxış edib

Yanvarın 29-da xarici işlər naziri Ceyhun Bayramov beynəlxalq sülh və etimad ilinin açılış mərasiminə həsr edilmiş videokonfrans formatında keçirilən tədbirdə Qoşulmama Hərəkatının (QH) üzv ölkələri adından bəyanatla çıxış edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, çıxışında bu mühüm təşəbbüsə görə Türkmənistan tərəfinə təşəkkürünü bildirən nazir bu xüsusda BMT Baş Assambleyasının 73/338 saylı 12 sentyabr 2019-cu il tarixli qətnaməsinin qəbul edilməsini alqışlayıb.

Beynəlxalq sülhün təşviqi və dəstəklənməsinin QH üçün ən vacib məsələ olduğu, o cümlədən 2019-cu ilin oktyabrında Bakıda keçirilən 18-ci Zirvə görüşündə, hərəkata üzv dövlətlərin dövlət və hökumət başçılarının sülhün və təhlükəsizliyin, qanunun aliliyinin, iqtisadi inkişaf və sosial tərəqqinin, həmçinin bütün insan hüquqlarının qorunması və təşviqində əvəzolunmaz olan BMT Nizamnaməsinin məqsəd və prinsiplərinin, eləcə də beynəlxalq hüququn norma və prinsiplərinin etibarlılığını bir daha təsdiq etdikləri vurğulanıb. Nazir Ceyhun Bayramov QH üzv dövlətlərinin, dialoq, dözümlülük, qarşılıqlı hörmət, anlaşma və barışığın təşviqinə regional və beynəlxalq səviyyədə töhfə verməyin, radikalizmə, ekstremizmə və nifrət nitqinə qarşı mübarizə aparmağın vacibliyini bir daha təsdiq etdiklərini qeyd edib. Bu xüsusda BMT Baş Assambleyasının dinlərarası və mədəniyyətlərarası dialoqun əhəmiyyətini vurğulayan 74/23 saylı qətnaməsinin qəbul edilməsini və onun sosial birliyin, sülhün və inkişafın, eləcə də fərdlər, cəmiyyətlər və millətlər arasında dözümlülük və hörmət mədəniyyətinin təşviqinə verdiyi dəyərli töhfənin QH tərəfindən alqışlandığı qeyd olunub.

QH-nin millətlərimizin və bütövlükdə bəşəriyyətin mənafelərinin təmin edilməsi üçün əvəzsiz olan BMT-nin və çoxtərəfli proseslərin gücləndirilməsi yolu ilə çoxqütblü bir dünya naminə çalışmaq əzmi ifadə edilib.

## Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin hazırlanması barədə

### Nazirlər Kabinetinin Sərəncamı

“Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən, Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin, o cümlədən Azərbaycan Respublikasının 2022-ci il və sonrakı üç il üçün büdcə xərclərinin funksional təsnifatının pilot (“təhsil”, “kənd təsərrüfatı” və “ətraf mühitin mühafizəsi”) bölmələrini əhatə edən ortamüddətli xərclər çərçivəsi (OMXÇ) sənədinin layihəsinin Azərbaycan Respublikasının Prezidentinə vaxtında təqdim edilməsi məqsədilə:

1. “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununa və digər normativ-hüquqi aktlara uyğun olaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ölkənin növbəti il və sonrakı üç il üçün büdcə xərclərinin funksional təsnifatının pilot bölmələrini əhatə edən OMXÇ sənədinin layihəsini, növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcəsinin layihəsini və sonrakı üç il üçün icmal büdcənin göstəricilərini, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının növbəti büdcə ili və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyasını və proqnoz göstəricilərini, toplu maliyyə balansının layihəsini 2021-ci il sentyabrın 15-dək hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər.

2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi:

2.1. cari il üçün ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqramını dəqiqləşdirmək məqsədilə 2020-ci ilin ilkin statistik məlumatlarını 2021-ci il fevralın 5-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

2.2. növbəti büdcə ili və gələn üç il üçün ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının, dövlət büdcəsi layihəsinin və toplu maliyyə balansının hazırlanması üçün zəruri statistik məlumatların mütəmadi olaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və digər əlaqədar təşkilatlara təqdim edilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

3.1. 2022-ci il və sonrakı üç il üçün dövlət büdcəsinin və icmal büdcənin proqnozunun (gəlir, xərc və kəsir) ilkin ortamüddətli göstəricilərini 2021-ci il fevralın 5-dək və aprelin 1-dək, dəqiqləşdirilmiş variantını isə 2021-ci il sentyabrın 5-dək, dövlət büdcəsində dövlət investisiya xərclərinin ilkin məbləğini 2021-ci il martın 31-dək, dəqiqləşdirilmiş məbləğini isə 2021-ci il iyulun 20-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsin;

3.2. büdcə xərclərinin funksional təsnifatının pilot bölmələrinin proqramları (tədbirləri) üzrə fəaliyyət planlarının, habelə baza proqnozlarının və yeni siyasət təşəbbüslərinin hazırlanmasına dair təlimat məktubunu 2021-ci il fevralın 15-dək OMXÇ sənədinin hazırlanmasında iştirak edən aidiyyəti təşkilatlara göndərilməsini təmin etsin;

3.3. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumlarının idarə edilməsinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırmaqla, “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Qanununun layihəsini hazırlayıb 2021-ci il mayın 15-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.4. Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlərinin formalaşdırılması, yığılması, istifadə edilməsi və uçotunun aparılması sahəsində vahid normativ-hüquqi aktın tətbiqi ilə bağlı təkliflərini aidiyyəti qurumlarla razılaşdırmaqla hazırlayıb 2021-ci il sentyabrın 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə uyğun olaraq, dövlət büdcəsinin layihəsi ilə birlikdə aidiyyəti dövlət orqanları tərəfindən hazırlanan sənədlərin qanunvericiliklə müəyyən olunmuş müddətlərdə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilməsi üçün həmin sənədlərin icmallaşdırılması işləri Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə həvalə edilsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən 2021-ci il aprelin 1-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edilən dövlət büdcəsi və icmal büdcə ilə əlaqədar məlumatlar əsasında sosial-iqtisadi proqnoz göstəricilərini dürüstləşdirərək, 2021-ci il aprelin 8-dək Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim etsin;

5.2. 2021-ci il üçün dəqiqləşdirilmiş, 2022-ci il və sonrakı üç il üçün ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin, ümumi və əhalinin əsas sosial demoqrafik qrupları üzrə yaşayış minimumunun 2022-ci il üçün ilkin proqnozlarını 2021-ci il martın 1-dək, dəqiqləşdirilmiş variantını və növbəti il üçün dövlət büdcəsinin layihəsi ilə uyğunlaşdırmaq məqsədilə dövlət investisiya proqramının layihəsini 2021-ci il avqustun 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

5.3. 2022-ci il və sonrakı üç il üçün ümumi daxili məhsulun həcminin, istehlak qiymətlərinin ortaillik indeksinin, orta aylıq əməkhaqqının, əhalinin gəlir və xərclərinin, məşğulluğunun və demoqrafik göstəricilərinin ilkin variantını 2021-ci il martın 1-dək, dəqiqləşdirilmiş variantını isə 2021-ci il avqustun 1-dək Dövlət Sosial Müdafiə Fonduna təqdim etsin;

5.4. vergi və rüsumlar üzrə 2020-ci ildə tətbiq edilən güzəşt və azadolmalara dair məlumatları “Vergi və gömrük sahəsində verilmiş güzəşt və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsirinin qiymətləndirilməsi metodologiyası və həmin güzəşt və azadolmaların reyestrinin aparılması Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 fevral tarixli 38 nömrəli Qərarı ilə müəyyən edilmiş qaydada və 2021-ci ildə gözlənilən güzəşt və azadolmalara (vergi və rüsumların növləri ayrılıqda göstərilməklə) dair məlumatları 2021-ci il iyunun 1-dək, iqtisadi maraqlar mərkəzi üzrə yenidən uçota alınmış vergi ödəyicilərinə (şəhər və rayonlar göstərilməklə) dair məlumatları isə 2021-ci il iyunun 15-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

5.5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə neft-qaz sahəsi üzrə dövlət və hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlər üzrə podratçı tərəflərin investisiya planları ilə bağlı məlumatların təqdim edilməsinə dair təkliflərini 2021-ci il avqustun 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

5.6. 2022-ci ildə özəlləşməyə çıxarılacaq obyektlərin siyahısını, özəlləşmədən daxilolmaların proqnoz göstəricilərini 2021-ci il iyulun 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

5.7. sosial-iqtisadi proqnoz göstəricilərini və dövlət investisiya proqramının istiqamətlərini hazırlayıb 2021-ci il mayın 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

5.8. 2021-ci il iyulun 1-dək respublikanın şəhər və rayonları üzrə vergi uçotuna alınmış, habelə neft-qaz sahəsində fəaliyyət göstərən vergi ödəyiciləri (podratçılar), “Avtomobil Yolları” Məqsədli Büdcə Fondu, dövlət adından yaradılan publik hüquqi şəxslər, büdcə təşkilatları, dövlət büdcəsindən və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlar, habelə səhmlərinin və ya paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısılə dövlətə məxsus olan hüquqi şəxslər (vergi ödəyiciləri), mərkəzləşdirilmiş qaydada uçota alınan digər vergi ödəyiciləri ilə bağlı 2020-ci il və cari ilin ötən dövrü üçün hesablanmış, azaldılmış, ödənilmiş və artıq ödənilmiş daxilolmalara dair məlumatları Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

5.9. təqdim olunacaq makroiqtisadi proqnoz göstəricilərinin siyahısının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları”nda dəyişikliklər edilməsi barədə qərar layihəsini hazırlayıb 2021-ci il mayın 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

6. Azərbaycan Respublikasının aidiyyəti mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanları:

6.1. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların maliyyələşdirilməsi ilə bağlı tələb olunan vəsaitə dair təkliflərini 2021-ci ilin martın 1-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər;

6.2. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sektorlar və istiqamətlər üzrə 2022-2025-ci illəri əhatə edən dövrdə (hər il üzrə ayrılıqda) bərpa və yenidənqurma işlərinin aparılması üçün tələb olunan vəsait barədə təkliflərini 2021-ci il martın 1-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər.

7. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, nazirliklərin, komitələrin, idarələrin, təşkilatların və dövlət müəssisələrinin rəhbərlərinə, şəhər və rayon icra hakimiyyəti orqanlarına tapşırılsın və bələdiyyələrə tövsiyə edilsin ki, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təlimat məktubuna uyğun olaraq lazım olan materialları iqtisadiyyatın müvafiq sahələrinin inkişafının təhlili əsasında növbəti büdcə ili və gələn üç il üçün ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasını, proqnoz göstəricilərini və toplu maliyyə balansını hazırlamaq məqsədilə 2021-ci il fevralın 5-dək və iyulun 15-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər.

8. Nazirliklər, komitələr və dövlət büdcəsindən maliyyələşən digər təşkilatlar dövlət büdcəsi vəsaitinin səmərəli istifadəsini təmin etmək məqsədilə funksional təsnifatın müvafiq bölmələri çərçivəsində inzibati təsnifata uyğun olaraq, boş (vakant) ştatlar (vakant ştatların vəzifə adı, sayı və vəzifə maaşı göstərilməklə) barədə məlumatları hər rübdən sonrakı ayın 15-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər.

9. Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi müvafiq olaraq büdcə xərclərinin funksional təsnifatının pilot bölmələri üzrə sektor strateji planlarını hazırlayıb 2022-ci il martın 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər.

10. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki, pul siyasətinə dair dəqiqləşdirilmiş məlumatları, həmçinin monetar sektora və tədiyə balansına dair cari ilin gözlənilən, növbəti il və sonrakı üç il üçün isə dəqiqləşdirilmiş proqnoz göstəricilərini 2021-ci il aprelin 15-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsin.

11. Dövlət Sosial Müdafiə Fondu, İşsizlikdən Sığorta Fondu və Azərbaycan Respublikasının Dövlət Neft Fondu növbəti büdcə ili və gələn üç il üçün öz büdcə layihələrinin ilkin variantını 2021-ci il martın 15-dək, dəqiqləşdirilmiş variantını isə 2021-ci il iyulun 1-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər.

12. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla “Avtomobil Yolları” Məqsədli Büdcə Fondu”nun, növbəti büdcə ili və gələn üç il üçün büdcə layihəsinin ilkin variantını 2021-ci il martın 15-dək, dəqiqləşdirilmiş variantını isə 2021-ci il iyulun 1-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsin.

13. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi vergi və rüsumlar üzrə 2020-ci ildə tətbiq edilən güzəşt və azadolmalara dair məlumatları “Vergi və gömrük sahəsində verilmiş güzəşt və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsirinin qiymətləndirilməsi metodologiyası və həmin güzəşt və azadolmaların reyestrinin aparılması Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 fevral tarixli 38 nömrəli Qərarı ilə müəyyən edilmiş qaydada və 2021-ci ildə gözlənilən güzəşt və azadolmalara (vergi və gömrük rüsumlarının növləri ayrılıqda göstərilməklə) dair məlumatları 2021-ci il iyunun 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

14. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, nazirliklərin, komitələrin, dövlət idarə və təşkilatlarının, səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərinin rəhbərlərinə, yerli icra hakimiyyəti orqanlarına tapşırılsın və bələdiyyələrə tövsiyə edilsin ki:

14.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təlimat məktublarına uyğun olaraq, 2022-ci il və sonrakı üç il üzrə dövlət investisiya proqramının layihəsini hazırlamaq üçün müvafiq məlumatları və sənədləri 2021-ci il martın 1-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər;

14.2. büdcə xərclərinin funksional təsnifatının pilot bölmələri üzrə kreditlər, qrantlar və ya digər maliyyələşmə formalarından asılı olmayaraq, 2022-ci il və sonrakı üç il üçün bütün mövcud və davam etməkdə olan layihələr üzrə baza proqnozlarını və yeni siyasət təşəbbüsləri (YST) ilə bağlı sifarişlərini, eləcə də proqramlar (tədbirlər) üzrə fəaliyyət planlarını Azərbaycan Respublikası Maliyyə Nazirliyinin bu Sərəncamın 3.2-ci yarımbəndində göstərilən təlimat məktubuna uyğun olaraq, 2021-ci il martın 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər;

14.3. davam edən layihələrin əsaslı xərclərinə dair məlumatları, həmçinin yüksək prioritetli yeni investisiya təklifləri üçün tələb olunan xərclərin təhlilinə dair məlumatları 2021-ci il martın 1-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər;

14.4. 2022-ci il və sonrakı üç ilin büdcə layihəsi hazırlanarkən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli 164 nömrəli Qərarı ilə təsdiq edilmiş “Büdcə təşkilatlarında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, təbii qaz və su) istehlakına görə limitlərin müəyyən edilməsi və tənzimlənməsi Qaydası”nın tələblərinə əməl etsinlər.

15. Nazirliklər, komitələr və dövlət büdcəsindən maliyyələşən digər təşkilatlar, dövlət büdcəsindən müvafiq maliyyə yardımı (dotasiya, subvensiya və subsidiya) alan idarə və təşkilatlar 2021-ci il iyulun 1-dək:

15.1. aidiyyəti dövlət proqramlarının, tədbirlər planlarının icra vəziyyəti və əldə olunmuş nəticələr barədə məlumatları hazırlayıb Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər;

15.2. dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən tədbirlərin dövlət sifarişinə aid olanları, həmçinin beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi, habelə xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi üçün dövlət büdcəsində vəsaitin nəzərdə tutulması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər.

16. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ölkənin növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcənin layihəsini və sonrakı üç il üçün icmal büdcənin göstəricilərini, eləcə də növbəti il və sonrakı üç il üçün büdcə xərclərinin funksional təsnifatının pilot bölmələrini əhatə edən OMXÇ sənədini, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi növbəti büdcə ili və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyasını və proqnoz göstəricilərini və toplu maliyyə balansının layihəsini hazırlamaq üçün əlavə əsaslandırıcı materialları və hesablamaları mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, habelə onların struktur bölmələrindən, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, digər hüquqi şəxslərdən, bələdiyyələrdən, büdcə və büdcədənkənar dövlət fondlarından tələb etsinlər.

17. Dövlət büdcəsi gəlirlərinin icrasını təmin edən orqanlar, nazirliklər, komitələr və dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan digər təşkilatlar, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti növbəti büdcə ili və sonrakı üç il üçün büdcə layihələrini tərtib edərkən, “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanunundan, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası”ndan və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları”ndan irəli gələn vəzifələri keyfiyyətlə və müəyyən olunmuş icra müddətlərində yerinə yetirilməsini təmin etsinlər.

18. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Bakı şəhəri, 29 yanvar 2021-ci il*

## Belarus səfiri etimadnaməsinin surətini Azərbaycanın xarici işlər nazirinə təqdim edib

Yanvarın 29-da xarici işlər naziri Ceyhun Bayramov Belarus Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş səfiri Andrey Ravkovun etimadnaməsinin surətini qəbul edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir Ceyhun Bayramov Azərbaycana səfir təyin olunması münasibətilə Andrey Ravkovu təbrik edib və səfirə gələcək fəaliyyətində uğurlar arzulayıb. Nazir Azərbaycan və Belarus arasında mövcud olan ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini məmnunluqla qeyd edib və bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu vurğulayıb. İki ölkə liderləri arasındakı dostluq münasibətlərinin ikitərəfli əlaqələrin inkişafına əhəmiyyətli töhfə verdiyi bildirilib. Ceyhun Bayramov hər iki ölkənin mövqeyinin beynəlxalq hüquq prinsipləri, xüsusilə də suverenlik, beynəlxalq sərhədlər çərçivəsində ərazi bütövlüyünə hörmət və daxili işlərə qarışmamaq prinsiplərinə əsaslandığını ifadə edib.

Nazir müstəqilliyinin ilk günlərindən etibarən Azərbaycanın üzləşdiyi təhlükəsizlik təhdidləri, ərazilərinin 20%-nin Ermənistan tərəfindən hərbi işğalı, etnik təmizlənməsi, onilliklər ərzində davam edən işğal siyasəti, nəhayət 44 günlük Vətən müharibəsi nəticəsində ərazilərimizin işğaldan azad edilməsi, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla hərbi əməliyyatlara son qoyulması və bölgədə hazırda mövcud olan vəziyyətlə bağlı Belarus səfirinə məlumat verib.

Səfir Andrey Ravkov Belarus Respublikasının xarici işlər naziri Vladimir Makeyin salamlarını nazir Ceyhun Bayramova çatdırıb. Ölkələrimiz arasında müxtəlif sahələr üzrə inkişaf edən əməkdaşlıq münasibətlərinin əsasında hər zaman beynəlxalq hüququn müstəqillik, suverenlik və ərazi bütövlüyünə dəstək prinsiplərinin dayandığı vurğulanıb. O, ikitərəfli əlaqələrin gələcəkdə daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini qeyd edib. Hərbi əməliyyatların dayandırılması və sülhün bərqərar olunması səyləri münasibətilə məmnunluq ifadə edən Belarus səfiri hazırkı mərhələdə üçtərəfli razılaşmaların yerinə yetirilməsinin əhəmiyyətini qeyd edib.

Tərəflər ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üzrə razılıqlarını ifadə ediblər.

Əvvəli 1-ci səh.



# Qarabağ milli dirçəlişin yeni rəmzi olacaq

## Mədəniyyət paytaxtı

Bu gün Şuşanın bərpadan sonrakı həyatı ilə bağlı strateji baxış da kifayət qədər aydındır. Ölkə rəhbəri artıq Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan edib və bu da şəhərin gələcəyi ilə əlaqədar məqsədyönlü planlara əsaslanır. “Bərpadan sonra Şuşada həyat qaynamalıdır. İnsanlar qayıdandan sonra Şuşanın çox zəngin mədəni həyatı olmalıdır. Həm ölkə daxilindəki tədbirlər, eyni zamanda bir çox beynəlxalq tədbirlər - festivallar, müsabiqələr, qastrollar orada keçirilməlidir. Yəni Şuşa nəinki Azərbaycanın, əminəm ki, bölgənin mədəniyyət paytaxtı adına layiq olacaqdır”, - deyir Prezident İlham Əliyev.

ISESCO rəhbərliyinin bir neçə gün əvvəl Azərbaycan Prezidenti ilə görüşündən sonra bu qurumun Şuşa şəhərinin İslam mədəniyyətinin paytaxtı elan edilməsi təklifindən çıxış etməyə hazırlaşması da qədim şəhərimizin gələcəyi ilə bağlı çox böyük önəm daşıyır. Yada salaq ki, indiyə qədər Azərbaycanın iki tarixi şəhəri - Bakı və Naxçıvan bu şərəfli ada layiq görülüb. Eyni zamanda bu yaxınlarda Türk Şurasının nümayəndə heyətinin Azərbaycan Prezidenti ilə görüşü əsnasında Türk Şurasının Baş katibi Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı seçilməsi təklifindən çıxış edib. Bütün bunlar təkcə Azərbaycan xalqının deyil, ümumən, türk, müsəlman dünyasının Şuşa şəhərinə olan böyük sevgi və marağından irəli gəlir.

Yanvarın 14-də Azərbaycan Prezidentinin və ailə üzvləri - ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və qızı Leyla xanım Əliyevanın Şuşaya səfəri, ora qalib kimi daxil olmaları zəfərimizin, öz haqlarımıza, milli dəyərlərimizə sahib çıxmaq əzmimizin, qurub-yaratmaq eşqimizin təcəssümünə çevrildi. Prezident İlham Əliyev möcüzə kimi görünənləri reallığa çevirdi. Ali Baş Komandanın Şuşada, əsgər və zabitlərimiz önündəki qalib duruşu, bu qədim mədəniyyət mərkəzimizin tarixi tikililərinə sevgi və qayğı dolu gözlərlə baxışı, Cıdır düzündə dayanıb əngin üfüqlərə baxması illər boyu bu günün həsrətini çəkmiş xalqımızın canlı simvolu kimi görünürdü. Şuşa bundan sonra bütün rəmzləri ilə birgə həm də xalqımızın milli birliyinin, bu birlikdən başlanan gələcək gözəl günlərimizin şəhəri olacaq. 2010-cu ildə Şuşa qalasının 260 illiyi qeyd olunmuşdu. Əfsuslar olsun ki, həmin tarixi Şuşa həsrəti ilə yaşamışdıq. Amma artıq Şuşa qalasının növbəti onilliklərini bu unikal məkanın özündə, qala divarlarına toxunaraq, bu müqəddəs şəhərimizin daş-daş, kərpic-kərpic tikilərək dünyanın ən gözəl şəhərlərindən birinə necə çevrilməsinə sevinərək keçirəcəyik. Beləliklə, Pənahəli xanın tikdirdiyi tarixi Şuşa şəhərinin yeni bir həyatı başlanır.

## Sənət beşiyi

Tarixi Şuşa qalasına görə xalq arasında “Qala” adı ilə məşhur olan şəhər yaranışından zadəganların və sənətkarların əsrarəngiz məkanı kimi tanınırdı. Azərbaycanın müxtəlif mədəniyyət mərkəzlərindən bura köçənlər Şuşada məhəllə-məhəllə yerləşirdilər. Beləliklə, Şuşada spesifik mədəniyyət, kübar mühiti formalaşırdı. Şuşa o dövrdə inkişaf etmiş qədim Şərq şəhərləri üçün xarakterik olan “hər məhəllənin öz məscidi, hamamı, mədrəsəsi” və digər zəruri infrastruktur tikililəri prinsipi əsasında inşa olunurdu. Bu baxımdan Şuşa XVIII əsr üçün müasir şəhərsalma mədəniyyətinin Azərbaycandakı son nailiyyəti sayılır. Xan sarayı, Gövhər ağa məscidləri, türbələr, minarələr, karvansaralar, bulaqlar unikal memarlıq nümunələri kimi Şuşanın çiçəklənməsi dövrünün yadigarlarıdır. Bu abidələr hər addımda insana xoş bir hekayət danışır.

Şuşa həm də Azərbaycanın ən böyük təhsil, maarif mərkəzlərindən olub. Məktəb məsələlərinə bu şəhərdə tarixən böyük önəm verilib. Şəhərdə 1801-ci ildən İbrahim xan məscidi nəzdində məktəb açılmışdı. Bu məktəb XIX əsrin ikinci yarısında da fəaliyyətini davam etdirirdi. 1830-cu ildə isə Azərbaycan qəzaları içərisində ilk qəza məktəbi məhz Şuşada təşkil edilmişdi. Bu, ümumən, Azərbaycanda müasir tipli ilk məktəb demək idi. Şuşada ali ibtidai məktəb də yaradılmışdı. Bütün bunlar şəhərdəki yüksəksəviyyəli təhsil mühitindən irəli gəlirdi. Çünki orta məktəb bitirənlərin əksəriyyəti təhsilini davam etdirmək arzusunda idi. Şuşa eyni zamanda Azərbaycanda kütləvi kitabxanaların yaradıldığı ilk şəhərlərdəndir. Hələ XIX əsrdən burada kiçik bir mətbəə də vardı. Şəhərin mədəni mühiti, formalaşan mütərəqqi ənənələr, burada yaşayan ziyalılar Şuşanın inkişafına təkan verirdilər. Qədim diyarda Xurşidbanu Natəvan, Əbdürrəhim bəy Haqverdiyev, Haşım bəy Vəzirov, Üzeyir bəy Hacıbəyli, Firudin bəy Köçərli, Həmidə xanım Cavanşir, Əhməd bəy Ağaoğlu, Yusif Vəzir Çəmənzəminli, Bülbül, Xan Şuşinski və minlərlə belə görkəmli şəxsiyyətlərimiz yetişib.

Şuşa həm də Azərbaycanın qədim poeziya və xanəndəlik məktəbidir. Azərbaycan ədəbiyyatının Molla Pənah Vaqif dövrü məhz bu şəhərdən başlanır. Vaxtilə Mir Mövsüm Nəvvabın Şuşada təşkil etdiyi “Məclisi-Fəramuşan” ədəbi məclisinin şöhrəti bütün Azərbaycana yayılmışdı. “Məclisi-üns” də bu şəhərdə yaradılmış məşhur ədəbi məclislərdən idi. Həmin məclislərdə tez-tez Xan qızı Natəvanın, Mirzə Möhsün Nəvvabın və Qarabağın müxtəlif yerlərindən olan çoxsaylı məşhur şairlərin iştirakı ilə şeir, musiqi tədbirləri keçirilər, Şuşa ədəbi mühiti daha da inkişaf edərdi.

Şuşa deyəndə yada düşən əsas dəyərlərimizdən biri də təbii ki, milli mədəniyyət incilərimizdən olan musiqimizdir. Şuşa musiqi mədəniyyətimizin beşiyidir, Qafqazın konservatoriyasıdır. Şəhər təşəkkül tapdığı ilk illərdən burada peşəkar xanəndə və çalğıçılardan ibarət məktəb formalaşmağa başlamışdı. İlk musiqi məktəblərinin yaranması ilə Şuşada xalq musiqisi ənənələri yayılır, zənginləşir və mədəniyyət tariximizdə böyük yeri olan sənətkarlar yetişdirirdi.

Mir Möhsün Nəvvab, Xarrat Qulu, Hacı Hüsü, Sadıqcan, Məşədi İsi, Əbdülbağı Zülalov, Cabbar Qaryağdıoğlu, Keçəçi oğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, İslam Abdullayev, Seyid Şuşinski, Bülbül, Zülfi Adıgözəlov, Xan Şuşinski, Məşədi Cəmil Əmirov, Qurban Pirimov, bəstəkarlardan Üzeyir bəy Hacıbəyli, Zülfüqar Hacıbəyov, Fikrət Əmirov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Süleyman Ələsgərov, Rəşid Behdudov... Hər biri böyük bir sənət tarixinə işıq salan bu adlar Şuşanın dünya musiqisinə bəxş etdiyi sənətkar şəxsiyyətlərin hələ məhdud bir sırasıdır. Şuşanın musiqi mühitini təmsil edən bütün yaradıcı insanların həyat və fəaliyyətinin öyrənilməsi üçün geniş tədqiqat əsərlərinə hələ də ehtiyac var.

Tez-tez təşkil edilən musiqi məclisləri, ziyalı mühiti bu şəhərdə teatr ənənələrinin də erkən təşəkkül tapmasına şərait yaratmışdı. Belə ki, 1848-ci ildə Şuşada ilk teatr tamaşası təşkil edilmişdi. 1882-ci ildən başlayaraq isə şəhər ziyalıları Şuşanı Azərbaycanın əsas teatr mərkəzlərindən birinə çevirmişdilər. Şuşalı teatr həvəskarları sırasında “Otello”nun ilk tərcüməçisi, jurnalist, komediyalar müəllifi Haşım bəy Vəzirov, məşhur xanəndə C.Qaryağdıoğlu, tanınmış ziyalılar S.Vəlibəyov, B.Bədəlbəyov, Ə.Haqverdiyev, F.Köçərli və başqaları var idi.

1897-ci ildə Şuşada Ə.Haqverdiyev Füzulinin “Leyli və Məcnun”unu, 1902-ci ildə Nizaminin “Xosrov və Şirin”ini səhnələşdirmişdi. Cabbar Qaryağdıoğlu hər iki tamaşada baş rolda oynamışdı. “Şərq konserti” adlı yeni konsert forması da 1901-ci ildə ilk dəfə Şuşada təşkil olunmuşdu. Bu konsertin ilk səhnələşdirilmiş musiqi tamaşası kimi milli operanın yaranmasına böyük təsiri olmuşdur. 1904-cü ildə Şuşa səhnəsində ilk dəfə Şekspirin “Otello” əsəri tamaşaya qoyulmuşdu.

Qarabağ xanlığının mərkəzi olması, şəhərdə xeyli sayda sənətkar, tacir ailələrinin yaşaması Şuşanın sosial-iqtisadi inkişafını təmin edirdi. Şəhər mədəniyyət inciləri ilə yanaşı, ipək parça toxuculuğu, xalçaçılıq, şərabçılıq ənənələri ilə də şöhrət tapmışdı.

## “Şuşanı dirçəldəcəyik”

Şuşa şəhərinin inkişafı sovet dövründə də davam etmişdi və burada Ulu Öndər Heydər Əliyevin böyük rolu vardı. Ermənilərin separatçı hərəkətlərinin qarşısını almaq üçün Ümummilli Lider əhalisinin 99 faizi azərbaycanlılardan ibarət olan Şuşa şəhərinə mənəvi qala kimi baxırdı. Onu da xatırladaq ki, 1921-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda Şuşanı bu vilayətin tərkibinə daxil etdirməklə, ermənilərin güddükləri əsas məqsəd tədricən Şuşada Azərbaycanın izlərini silmək idi. Amma 1969-1982-ci illərdə Heydər Əliyev bu prosesin qarşısını aldı, Şuşanı Azərbaycan şəhəri kimi inkişaf etdirdi. O günlər artıq yenidən qayıdır. Prezident İlham Əliyev bu il Şuşada iki tədbirin keçirilməsi ilə bağlı tapşırıqlarını verib. “Xarıbülbül” festivalı, Vaqif poeziya günləri bərpa ediləcək. Böyük şairimiz Vaqifin vaxtilə Heydər Əliyevin təşəbbüsü ilə ucaldılmış, ermənilərin işğal dövründə viran qoyduqları məqbərəsinin yenidən inşası ilə bağlı işlərə start veriləcək. Məqbərənin bu il bərpa edilməsi əsas tapşırıqlardandır. Çünki Vaqif poeziya günləri məqbərənin önündə keçiriləcək. Ulu Öndərin milli dövlətçilik fəlsəfəsi ruhunda Azərbaycanı ən qüdrətli inkişaf mərhələsinə yetirmiş, bizi tariximizin ən şanlı zəfərinə qovuşdurmuş Prezident İlham Əliyevin rəhbərliyi ilə Şuşanın, Qarabağ torpaqlarının və ümumən, Azərbaycanın mədəni intibahı başlanır.

“Bu müharibə bir daha Azərbaycan xalqının əyilməz ruhunu göstərdi və bir daha göstərdi ki, nəyi demişəmsə, onu da etmişəm. Təsadüfən demirdim ki, mən bilirəm nəyi, necə, nə vaxt etmək lazımdır. Azərbaycan xalqına kiçik də olsa, siqnal verirdim ki, hər şey yaxşı olacaq. İstədiyimizə nail olacağıq, sadəcə olaraq, hər şeyin vaxtı var. Müharibə dövründə, sadəcə olaraq, bir dəfə Şuşa haqqında demişdim, o da müxbir soruşdu ki, bəs Şuşa nə vaxt alınacaq? Əlbəttə ki, bunu biz deyə bilməzdik, dedim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq. Ancaq heç şübhə etmirdim ki, biz əziz, doğma Şuşamızı erməni əsirliyindən xilas edəcəyik, Azərbaycan bayrağını qaldıracağıq. O vaxt demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq. Bu gün isə deyirəm ki, biz hamımız, bütün xalqımız Şuşanı dirçəldəcəyik!”

Azərbaycan Prezidentinin bu qətiyyətli kəlmələri Şuşadan başlanan böyük gələcəyimizin müjdəsidir.

***İradə ƏLİYEVA,***
***“Azərbaycan”***

# Milli Məclisin sədri İordaniyanın ölkəmizdəki səfiri ilə görüşüb



Yanvarın 29-da Milli Məclisin sədri Sahibə Qafarova İordaniya Haşimilər Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sami Abdullah Ğöşeh ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, sədr qonağı salamlayaraq, Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan dövlətlərdən biri kimi ölkəmizin İordaniya ilə münasibətlərin inkişafına böyük önəm verdiyini bildirib. Qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyevlə İordaniya Kralı II Abdullah arasındakı səmimi dostluq münasibətləri, dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin həyata keçirilməsi, aparılan danışıqlar və tərəflər arasında imzalanmış sənədlər münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə yüksəldib. Siyasi müstəvidəki müsbət dialoq digər sahələrdə də intensiv əlaqələrin qurulmasına şərait yaradır. Heç də təsadüfi deyil ki, ölkələrimiz həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edirlər. İqtisadi sahədə əlaqələrimizi daha da dərinləşdirmək üçün geniş imkanlar var.

Milli Məclisin sədri dövlətlərarası münasibətlər sistemində parlamentlərin rolunu xüsusi vurğulayaraq, hər iki ölkənin qanunvericilik orqanları arasında əlaqələrin inkişafının əhəmiyyətindən danışıb. Bildirib ki, bu gün Milli Məclisdə Azərbaycan-İordaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Deputatların qarşılıqlı səfərləri, müxtəlif beynəlxalq platformalarda mütəmadi görüşləri təcrübə və informasiya mübadiləsi baxımından çox önəmlidir. Bu, bölgə həqiqətlərinin, o cümlədən Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük Zəfər barədə məlumatların geniş ictimaiyyətə çatdırılması baxımından da əhəmiyyətlidir.

Sədr qonağa diplomatik fəaliyyətində uğurlar arzulayaraq, onun səfir kimi iki ölkə arasında əməkdaşlığın inkişafına layiqli töhfələr verəcəyinə inamını ifadə edib.

Səmimi qəbul üçün minnətdarlığını bildirən İordaniya Haşimilər Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sami Abdullah Ğöşeh deyib: “Azərbaycanı sevməmək mümkün deyil”. Qeyd edilib ki, İordaniya onunla ortaq dini, mədəni və mənəvi dəyərləri bölüşən Azərbaycanla əlaqələrin genişlənməsində maraqlıdır. Hər iki ölkənin dövlət başçıları arasındakı dostluq münasibətləri əməkdaşlığımızın daha da inkişafı üçün möhkəm zəmin yaradır. Siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələrimiz yüksələn xətlə inkişaf edir.

Səfir deyib ki, əməkdaşlığımızın dərinləşməsində parlamentlərin rolu böyükdür. Qonaq İordaniya parlamentinin formalaşması və fəaliyyəti haqqında ətraflı məlumat verərək, nümayəndə heyətlərinin səfərlərinin və deputatların mütəmadi təmaslarının əhəmiyyətindən danışıb. Bildirilib ki, İordaniya xalqı Azərbaycana xüsusi münasibət göstərir və onun ölkəsi gələcəkdə Azərbaycanla əlaqələri daha da dərinləşdirmək niyyətindədir.

Söhbət zamanı parlamentlərarası əlaqələrin bu günü, gələcək inkişaf perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Türkiyə müdafiə nazirləri arasında telefon danışığı olub

**Yanvarın 29-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar arasında telefon danışığı baş tutub.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müdafiə nazirləri Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlaması ilə əlaqədar məsələləri müzakirə ediblər.

# Yerli özünüidarəetmədə gənclərin rolunun artırılmasına dair müzakirələr aparılıb

Milli Məclisin Gənclər və idman komitəsinin, Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli assosiasiyalarının birgə təşkilatçılığı ilə 47 şəhər, qəsəbə və kənd bələdiyyəsinin gənclərdən ibarət təmsilçilərinin iştirakı ilə “Yerli özünüidarəetmədə gənclərin rolu” mövzusunda videokonfrans təşkil edilib.




AZƏRTAC xəbər verir ki, Gənclər və idman komitəsinin sədr müavini Şahin İsmayılov, Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli assosiasiyalarının koordinatoru, Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının icraçı katibi Tofiq Həsənov konfransın açılışında tədbirin 2 Fevral - Azərbaycan Gəncləri Günü ərəfəsində keçirilməsinin əhəmiyyətindən və bələdiyyələrin fəaliyyəti zamanı gənc bələdiyyə üzvləri üçün yaradılmış geniş imkanlardan danışıblar.

Milli Məclisin Gənclər və idman komitəsinin sədr müavini Şahin İsmayılov, Regional məsələlər komitəsinin üzvü Kamran Bayramov, Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Təmraz Tağıyev tədbirdə çıxış edərək Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsindəki 44 günlük hərbi əməliyyatlar dövründə hər bir azərbaycanlının, xüsusən də gənclərin milli birlik nümayiş etdirdiklərini vurğulayıblar. Dövlət başçısının respublikamızda apardığı çoxsahəli gənclər siyasəti, həmçinin bələdiyyə üzvlərinin qanunvericilikdə nəzərdə tutulan hüquq və vəzifələrinin gənclər tərəfindən daha səmərəli yerinə yetirilməsinin vacibliyi qeyd olunub və praktiki təkliflər irəli sürülüb.

Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktorunun müavini Qədir Xəlilov, Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) sədri Azər Əliyev təmsil olunduqları qurumların fəaliyyəti barədə məlumat verib, gələcəkdə yerli özünüidarəetmə sahəsində çalışan gənc bələdiyyə üzvlərinin reallaşacaq yeni layihələrdə iştirakları ilə bağlı təkliflərini səsləndiriblər.

Daha sonra mövzu ətrafında müzakirələr aparılıb. Milli Məclisin üzvləri, gənclər təşkilatlarının və bələdiyyələrin milli assosiasiyalarının nümayəndələri videokonfrans iştirakçılarının suallarını cavablandırıb və tövsiyələrini veriblər.

Bildirilib ki, bu silsilədən olan tədbirlər müntəzəm davam etdiriləcək.

# Azərbaycan Qafqazda toqquşan maraqları əməkdaşlıq məcrasına yönəldir

**Prezident İlham Əliyev yanvarın 26-da Rəşad Nəbiyevi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformat çərçivəsində qəbul edərkən yeni nazirə vəzifə yükünün tələblərini izah etməklə yanaşı, bütünlükdə ölkə iqtisadiyyatının vəziyyətini dəyərləndirmişdir.**

Dövlət başçısı bir neçə istiqamətdə qazanılan nailiyyətləri vurğulamış, avtomobil, dəmir, dəniz və hava yollarının inkişafının bütünlükdə Azərbaycanın iqtisadi gücünün artmasına və beynəlxalq nüfuzunun yüksəlməsinə səbəb olduğunu diqqətə çatdırmışdır. Qəbulda həmçinin Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin qarşısında duran vəzifələrin mahiyyətini təyin edən hədəflər nəzərdən keçirilmişdir.

Tarixən Azərbaycan super dövlətlərin maraqlarının toqquşduğu məkan kimi daim diqqət mərkəzində olmuş, ciddi təzyiqlərə və uzunsürən münaqişələrə məruz qalmışdır. Lakin ölkəmizin tarixində ilk dəfə Prezident İlham Əliyev bir-biri ilə çəkişən, Azərbaycanı təsir dairəsində saxlamaq istəyən güc mərkəzlərinin maraqlarını əməkdaşlığa, savaş yollarını isə sülh körpülərinə çevirir. Buna baxmayaraq, nasizm girdabında boğulan Ermənistan müxtəlif bəhanələrlə bu əməkdaşlıqdan kənarda qalmağa cəhd edir.

Azərbaycan bu gün köklü islahatların sayəsində bütün istiqamətlərdə inkişafa nail olur. Aparılan iqtisadi islahatların və reallaşdırılan böyük layihələrin hesabına ölkəmiz nəqliyyat sahəsində lider dövlətlərdən birinə çevrilmiş, beynəlxalq təşkilatların reytinqlərində ən yüksək pillələrə ucalmışdır. Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında Azərbaycan reytinq cədvəlində bir çox istiqamətlər üzrə qabaqcıl yerlərdədir. Məsələn, biz dünyada avtomobil yollarının keyfiyyətinə görə 24-27-ci, dəmir yollarının səmərəliyinə görə 11-ci, hava nəqliyyatının səmərəliyinə görə 12-ciyik. Nəqliyyat sahəsinə yatırılan sərmayələr dünya çapında Azərbaycanın imicini dəyişmiş, onun nüfuzunu dünyanın ən müasir ölkələri səviyyəsinə qaldırmışdır. Bundan başqa, biz dünyada sülhə və əməkdaşlığa qucaq açan tolerant ölkə titulunu da qazana bilmişik.

Uzunmüddətli inkişaf strategiyası bizə mühüm tranzit imkanları əldə etməyə imkan vermişdir. Bu gün Azərbaycan cənubla şimalı, qərblə şərqi birləşdirən tranzit ölkədir. Yeri gəlmişkən, qeyd edək ki, son 17 il ərzində ölkəmizdə hər il min kilometr uzunluğunda həm magistral, həm kənd, həm də şəhərlərarası avtomobil yolları salınmışdır. Yəni 17 il ərzində 17 min kilometrdən artıq yol çəkilmişdir. Ən əsası isə, düşmən tapdağından azad edilmiş ərazilərimizdə də yeni yol infrastrukturunun yaradılmasına start verilmişdir.

Əgər ölkəni canlı orqanizm kimi təsəvvür etsək, bütün növ yolları bu bədəni qidalandıran qan damarlarına bənzətmək mümkündür. Bakı-Tbilisi-Qars dəmir yolunun Azərbaycanın təşəbbüsü ilə inşa edilməsi bölgəmizdə və bütövlükdə Avrasiyada yeni nəqliyyat xəritəsini yaratmışdır. Prezident sözügedən videoqəbulda qeyd etmişdir ki, ölkə ərazisindən keçən yolların çoxşaxəli olması imkanlarımızı böyük dərəcədə artırmışdır: “Pandemiya dövründə bütövlükdə bütün dünyada iqtisadiyyatın tənəzzülə uğramasına baxmayaraq, bildirməliyəm ki, “Şimal-Cənub nəqliyyat dəhlizi” ilə daşınan yüklərin həcmi təxminən 20 faiz artmışdır. Bizim dəmir yolu infrastrukturumuzdan bir çox ölkələr istifadə edirlər. Hazırda Çin-Qazaxıstan-Xəzər dənizi-Azərbaycan-Avropa marşrutu, eyni zamanda Əfqanıstan-Türkmənistan-Xəzər dənizi-Azərbaycan-Avropa marşrutu mövcuddur. Bakı-Tbilisi-Qars dəmir yolunu faktiki olaraq Lapis-Lazuli yolu ilə birləşdirdik və əlbəttə ki, burada çoxşaxəli nəqliyyat infrastrukturu öz rolunu oynamışdır”.

Ölkəmiz dəmir və avtomobil yollarından başqa, dəniz nəqliyyatının inkişafında da uğur qazana bilmişdir. Azərbaycan Prezidentinin təşəbbüsü ilə bir neçə il əvvəl istismara verilən Bakı Gəmiqayırma Zavodunda artıq bütün növ gəmilər istehsal olunur. Zavodun həm istehsal gücü, həm də məhsullarının çeşidi ildən-ilə artmaqdadır. Hazırda zavodda tankerlər, Ro-Ro gəmiləri və yük gəmiləri istehsal olunur. Dövlət başçısı da videoqəbulda gəmiçilikdə ən zəruri nailiyyətin əldə edildiyini dilə gətirmişdir: “Biz bu sahədə xaricdən asılılığı aradan qaldırmışıq, minlərlə iş yeri açmışıq və neft-qaz əməliyyatlarında iştirak edən şirkətlər üçün də imkanlar yaratmışıq. Onlar da öz sifarişlərini bu zavoda verirlər”.

Prezident İlham Əliyev Xəzər Gəmiçiliyini qısa müddət ərzində müasirləşdirmiş, ən böyük donanmanın yaradılmasına nail olmuşdur. Bu titanik səylərin nəticəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzərdə yükdaşımaları yüksək səviyyədə təşkil edə bilən ən müasir dəniz ticarət limanına çevrilmişdir.

Ölkəmizin hava yolları da son islahatlardan uğurla bəhrələnmişdir. Dövlət başçısı qəbulda bu gün ölkənin təyyarə parkının müasir tələblərə cavab verən yük və sərnişin hava laynerləri ilə təmin edildiyini bildirmiş, beşulduzlu Heydər Əliyev Beynəlxalq Hava Limanının dünyada 10 limandan biri, MDB-də isə birinci olduğunu vurğulamışdır: “Son illərdə 7 hava limanı inşa edilmişdir. Onlardan 6-sı beynəlxalq statusa malikdir və bütün növ təyyarələri, o cümlədən ən ağır yük təyyarələrini qəbul edə bilir. Bildiyiniz kimi, Füzuli şəhərində yeni beynəlxalq hava limanının inşasına start verilib və azad edilmiş torpaqlarda - ya Laçın, ya Kəlbəcər rayonunun ərazisində ikinci beynəlxalq hava limanı inşa ediləcək”.

Bəli, Azərbaycanın müasir nəqliyyat sektoru onun qarşısında qoyulan bütün vəzifələri asanlıqla icra etməyə imkan verir. Bütünlükdə bu sahəyə yatırılan böyük sərmayə qeyri-neft sektorunda iqtisadiyyatın inkişafına müsbət təsir göstərir: “Bu, uzunmüddətli sərmayədir. Bu sərmayələr insanların rahatlığına və ölkənin uzunmüddətli dayanıqlı inkişafına nail olmaq üçün qoyulubdur”.

Bütün bunların fonunda isə faşizmi, özgə ərazilərini işğalda saxlamağı amalına çevirən Ermənistan bu çoxsaylı layihələrdən kənarda qalmış və hazırda iqtisadi kollaps yaşamaqdadır. 30 il qalib görkəmində poza verən bu ölkə indi qarşıdurmaların, xarici təsir və təhdidlərin əlində aciz qalmışdır.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# Postmüharibə dövründə 1700-dən çox şəhid ailəsi üzvü və qazi özünüməşğulluq proqramına cəlb olunub

Şanlı Zəfərimizlə başa çatan Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın ailələrinə, bu müharibənin qazilərinə özünüməşğulluq proqramı çərçivəsində də sosial dəstək göstərilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, müharibədən sonrakı dövrdə həmin kateqoriyalardan olan 1700-dən çox şəxs növbədənkənar olmaqla özünüməşğulluq proqramına cəlb olunub. Onlardan 900-ü şəhid ailələrinin üzvləridir. Proqrama cəlb olunanların istəkləri və əmək bacarıqları nəzərə alınaraq seçdikləri iqtisadi fəaliyyət növləri üzrə kiçik təsərrüfat və müəssisələrini qurmaları üçün qısa müddətdə aktivlərlə təmin olunur.

Eyni zamanda şəhid ailəsi üzvləri və qazilərdən ibarət 300 şəxsin məşğulluq məsələləri operativ şəkildə həll olunub. Onlar ödənişli ictimai işlər və əməkhaqlarının bir hissəsinin birgə maliyyələşdirilməsi proqramları çərçivəsində işlə təmin ediliblər.

## 30 Yanvar Gömrük İşçilərinin Peşə Bayramıdır

# Azərbaycanda dünya standartlarına uyğun gömrük xidməti formalaşıb

**Yanvarın 30-da Dövlət Gömrük Komitəsinin yaradılmasından 29 il ötür və hər ilin bu günü gömrük əməkdaşları öz peşə bayramlarını qeyd edirlər. Lakin builki peşə bayramı əvvəlkilərdən fərqlidir. Çünki biz bu bayramı qalib ölkənin gömrük əməkdaşları kimi qeyd edirik.**

2020-ci il gömrük orqanları, gömrükçülər üçün də, ilk növbədə, 30 ilə yaxındır işğal altında olan ərazilərimizin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu tərəfindən azad edilməsi, Qarabağ həsrətinin bitməsi ilə yadda qaldı. Bu sevinci, bu qüruru bizə yaşatdıqları üçün şəhidlərimizin ruhu qarşısında baş əyir, onların valideynlərinə dərin təşəkkürümüzü bildirir, başda Müzəffər Ali Baş Komandan İlham Əliyev olmaqla, şanlı Azərbaycan Ordusunun hər bir mənsubuna dərin minnətdarlıq hisslərimizi çatdırırıq. Prezident İlham Əliyevin uzun illər bütün sahələrdə həyata keçirdiyi uğurlu siyasət, xüsusilə ordu quruculuğu istiqamətində reallaşdırdığı tədbirlər 44 günlük Vətən müharibəsini qələbə ilə nəticələndirdi. Şübhəsiz ki, 2020-ci ildə qazanılan bu zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra təşəkkül tapmış yeni strukturlardan biri olan gömrük sistemi 1992-ci il yanvarın 30-da yaradılıb və ötən müddət ərzində müstəqil gömrük xidməti ölkəmizin iqtisadi təhlükəsizliyinin etibarlı təminatçısı kimi formalaşan mühüm dövlət təsisatına çevrilib. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın iqtisadi təhlükəsizliyinin qorunmasının və daha da möhkəmləndirilməsinin əsas istiqamətlərindən birini yüksək səviyyəli gömrük xidmətinin yaradılmasında görürdü. Məhz Ulu Öndərin uzaqgörən siyasəti, gömrük sisteminin formalaşması üçün verdiyi dəyərli tövsiyələri və bu qurumun daha da modernləşməsinə yönələn iqtisadi siyasəti nəticəsində Azərbaycanda dünya standartlarına uyğun gömrük xidməti formalaşıb.

Prezident İlham Əliyev hər bir sahədə olduğu kimi, gömrük sisteminin də bütün istiqamətlər üzrə daha da təkmilləşdirilməsi işini daim diqqət mərkəzində saxlayır. Bunun nəticəsidir ki, son illər Azərbaycan gömrük xidməti dinamik inkişaf edir və yeni, müasir layihələr həyata keçirməklə beynəlxalq standartlara cavab verən təşkilat kimi inamla irəliləyir. Gömrük orqanlarının və onun əməkdaşlarının əsas məqsədi göstərilən etimadı doğrultmaq, dövlətə, dövlətçiliyə sədaqət nümayiş etdirməklə qarşıya qoyulan vəzifələri vicdanla yerinə yetirməkdir. Son illər gömrük sistemində şəffaflığın təmin olunması, idarəçiliyin təkmilləşdirilməsi, elektron xidmətlərin sayının artırılması və digər sahələrdə islahatların əhatə dairəsi xeyli genişlənib ki, bu da xidmət mədəniyyətinin yüksəlməsində, xarici ticarət iştirakçılarında könüllü riayət prinsiplərinin formalaşmasında və beynəlxalq ticarətin asanlaşmasında əhəmiyyətli rol oynayıb.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli dövlət quruculuğu və inkişaf konsepsiyasının Prezident İlham Əliyev tərəfindən uğurla və qlobal çağırışlara uyğun davam etdirilməsi nəticəsində ötən illərdə olduğu kimi, 2020-ci ildə də ölkə iqtisadiyyatında islahatlar davam etdirilmiş, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, qeyri-neft sektorunun təşviqi və qeyri-neft məhsullarının ixracının artırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi istiqamətində həyata keçirilən genişmiqyaslı islahatlar ölkəmizin ümumi iqtisadi inkişaf strategiyasının formalaşmasına və bu strategiyanın uğurla həyata keçirilməsinə etibarlı zəmin yaradılmışdır.

Qeyd edilən sosial-iqtisadi inkişafa öz töhfəsini vermək, qarşıya qoyulmuş vəzifə və tapşırıqların yüksək səviyyədə yerinə yetirilməsi istiqamətində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən ötən dövrlərdə olduğu kimi, 2020-ci il ərzində də müəyyən edilmiş proqnoz göstəriciləri uğurla yerinə yetirilib, gömrük nəzarəti və gömrük qaydalarının pozulmasına qarşı mübarizə tədbirləri gücləndirilib, komitənin maddi-texniki bazası möhkəmləndirilib, şəxsi heyətlə aparılan işin səmərəliliyi artırılıb.

Dövlət Gömrük Komitəsi və onun strukturuna daxil olan gömrük orqanları 2020-ci ildə öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, Gömrük Məcəlləsi, "Gömrük tarifi haqqında" qanun Prezidentin müvafiq fərman və sərəncamları, Nazirlər Kabinetinin qərarları, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2017-2021-ci illər üzrə inkişafına dair Fəaliyyət Planı"nı və gömrük işini tənzimləyən digər normativ-hüquqi aktları işdə rəhbər tutaraq tərtib olunmuş iş planı əsasında qurub.

Dünya Bankının Daxili Audit Komitəsi tərəfindən keçirilmiş auditin nəticələrinə uyğun olaraq, Azərbaycan yeganə ölkə kimi irəliləyiş nümayiş etdirərək "Doing Business 2020" hesabatında mövqeyini 6 pillə yaxşılaşdırıb, növbəti dəfə dünyanın "Ən islahatçı 10 ölkəsi" sırasına daxil olub, xüsusilə 3 indikator dəyişikliyə məruz qalıb və "Sərhəddə ticarət" indikatoru müsbət istiqamətdə əsas ciddi dəyişikliklərə məruz qalan indikatorlardan biri olub, ölkəmiz 34-cü pillədən 28-ci pilləyə irəliləyib.

Alman-Azərbaycan Xarici Ticarət Palatasının 2020-ci il biznes mühiti hesabatının gömrük məsələlərinə dair hissəsində son bir neçə ildə gömrük orqanlarının ticarətin asanlaşdırılması, gömrük prosedurlarının sadələşdirilməsi və uyğunlaşdırılması, korrupsiya və rüşvət hallarının minimuma endirilməsi istiqamətində apardığı genişmiqyaslı işləri təqdirəlayiq hal kimi qiymətləndirilib. Bu kontekstdə birbaşa insan təmasının rolunu məhdudlaşdırmaq üçün elektron gömrük təşəbbüslərinin təkmilləşdirilməsində və müəssisələrin ehtiyaclarını daha dolğun təmin etmək üçün dövlət-özəl sektor dialoqunun inkişafındakı irəliləyiş Azərbaycanda fəaliyyət göstərən xarici müəssisələr tərəfindən yüksək dəyərləndirilib. Alınan rəylər əvvəlki illərdə biznes ictimaiyyəti tərəfindən qaldırılan aktual ehtiyaclardan biri olan "Yaşıl dəhliz" rejiminin optimallaşdırılması istiqamətində atılan addımların bəhrəsini verməyə başladığını göstərir. Alman-Azərbaycan Xarici Ticarət Palatasının apardığı sorğuda iştirak edən respondentlərin yarıdan çoxu (58%) gömrük islahatlarını ən səmərəli islahatlar kimi qiymətləndirərək ilk 5-likdə sıralayıb.

"Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 4 mart 2016-cı il tarixli sərəncamına uyğun olaraq, məmur-vətəndaş təmasının minimuma endirilməsi, elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi məqsədilə bəyannamələrin rəsmiləşdirilməsi üçün əməkdaşların təyin edilməsində elektron növbə sistemi yaradılıb, hər bir xarici iqtisadi fəaliyyət iştirakçılarına tez bir zamanda yüklərini rəsmiləşdirmələrinə maksimum şərait yaradılıb.



### Gömrük xidməti koronavirusla mübarizədə ayıq-sayıqdır

Koronavirus (COVID-19) infeksiyasının ölkəmizin ərazisində yayılmasının qarşısının alınması məqsədilə Dövlət Gömrük Komitəsi tərəfindən gömrük-sərhəd buraxılış məntəqələrinin gücləndirilmiş iş rejiminə keçirilməsi haqqında sərəncamı ilə bir sıra tapşırıqlar müəyyən edilib. O cümlədən "Səhiyyə məqsədləri üçün sərnişin haqqında məlumat təqdimetmə forması" (Azərbaycan, rus və ingilis dillərində) hazırlanıb, səyahət edən şəxslər üzərində effektiv nəzarət tədbirlərinin həyata keçirilməsi məqsədilə ölkənin bütün gömrük-sərhəd buraxılış məntəqələrində məsafədən hərarətin ölçülməsi üçün nəzərdə tutulan termovizorlar quraşdırılıb, vətəndaşların və nəqliyyat vasitələrinin keçdiyi ərazilərdə, eləcə də koronavirus infeksiyasına yoluxma riski olan digər yerlərdə mütəmadi olaraq dezinfeksiya işləri aparılıb, infeksiyaya yoluxma riskinin azaldılması məqsədilə komitənin strukturuna daxil olan ərazi və ixtisaslaşdırılmış gömrük idarələrinin şəxsi heyəti müvafiq fərdi mühafizə vasitələri və digər ləvazimatlarla təmin edilib.

Bunlardan əlavə, koronavirus pandemiyası ilə bağlı sualların cavablandırılması məqsədilə Dövlət Gömrük Komitəsinin "Çağrı" mərkəzində "Qaynar xətt"in fəaliyyəti fasiləsiz iş rejimində təmin olunub, profilaktik tədbirlərin aparılması çərçivəsində gömrük-sərhəd buraxılış məntəqələrindən keçən şəxslərin və gömrük əməkdaşlarının məlumatlandırılması üçün nəzərdə tutulan, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri əsasında posterlər hazırlanaraq bütün gömrük-sərhəd buraxılış məntəqələrinə göndərilib. Həmçinin Azərbaycan Respublikasının dövlət sərhədlərində sanitariya nəzarətinin daha da gücləndirilməsi və müasir çağırışlara cavab verməsi məqsədilə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin tərkibində Sanitar-Karantin Xidməti yaradılıb, eləcə də maarifləndirici kitabçalar və təlimatlar hazırlanıb.

### Gömrük ödənişlərinə artıqlaması ilə əməl olunur

"Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanununa əsasən, 2020-ci il ərzində Dövlət Gömrük Komitəsi üçün müəyyənləşdirilən 3 milyard 830 milyon manat proqnoza qarşı 3 milyard 938 milyon 242 min manat gömrük ödənişlərinin toplanaraq dövlət büdcəsinə köçürülməsi təmin edilib və büdcə öhdəliyinə 102,83 faiz əməl olunub. Onu da qeyd edim ki, 2021-ci il üzrə Dövlət Gömrük Komitəsi üçün 3 milyard 900 milyon manat həcmində büdcə proqnozu müəyyən edilib.

Hesabat dövründə malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi və elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi məqsədilə "Yaşıl dəhliz", eləcə də beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sistemlərinin yaradılmasının təmin edilməsi və digər istiqamətlərdə bir sıra mühüm tədbirlər həyata keçirilib. Belə ki, idxal olunan malların gömrük dəyərinin və çəkisinin düzgün bəyan olunmaması nəticəsində yaranan fiskal risklərin insan amili olmadan avtomatik olaraq aşkar edilməsi məqsədilə elastiklik göstəricilərinin avtomatlaşdırılması istiqamətində beynəlxalq statistik modellərdən istifadə edilməklə təhlillər aparılır. Ötən il 29 risk profili deaktiv olunaraq 91 yeni risk profili sistemə əlavə edilib. Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası üzrə mal kodlarının, gömrük dəyərinin düzgün bəyan olunmaması, idxal olunan mallar üzrə çəki fərqləri təhlil edilmiş riskli mal mövqeləri, həmçinin bir sıra risk meyarları nəzərə alınmaqla risk hallarının minimallaşdırılması məqsədilə müvafiq risk profilləri tətbiq olunub.

Gömrük-sərhəd buraxılış məntəqələrinin mövcud potensialından daha səmərəli istifadə olunması, Dövlət Gömrük Komitəsinin sərəncamında olan resursların daha riskli sahələrə yönləndirilməsi, eləcə də gömrük orqanlarında beynəlxalq tələblərə cavab verən risklərin idarəolunması sisteminin yaradılması məqsədilə Ümumdünya Gömrük Təşkilatının Risk Menecment Kompendiumunun sərhəd risklərinin idarəolunması üçün istifadə edilən əsas risk meyarları, sərhəd risklərinin idarəolunması üzrə qabaqcıl beynəlxalq təcrübə öyrənilərək idxal, ixrac və tranzit əməliyyatlarını həyata keçirən yük avtomobillərinin gömrük-sərhəd buraxılış məntəqələrindən risk əsaslı avtomatlaşdırılmış sistem vasitəsilə keçidinin təmin edilməsini özündə ehtiva edən sərhəd risklərinin idarəolunması sisteminin modulu layihəsi hazırlanıb. Bu sistem hər bir sərhədkeçmə əməliyyatı üzrə müəyyən olunmuş risk meyarlarına əsasən məlumatların emal edilməsini, onlara riyazi müəyyən olunmuş əhəmiyyətlilik dərəcəsi üzrə xüsusi çəki verməsini və nəticədə aparılmış qiymətləndirməyə görə əməliyyatın riskli olub-olmaması ehtimalının müəyyən edilməsini nəzərdə tutur.

Ümumdünya Gömrük Təşkilatı ilə Dövlət Gömrük Komitəsi arasında Yük Hədəfləmə Sisteminin tətbiqinə dair bağlanmış müqavilə çərçivəsində risklərin idarə edilməsi üzrə ilkin qiymətləndirmə işləri aparılıb, eyni zamanda gömrük-sərhəd keçid məntəqələrində formalaşan məlumatların proqram təminatına uyğunlaşdırılması, həmin məlumatları emal edən virtual maşınların tətbiqinə başlanılması, müvafiq təlimlərin həyata keçirilməsi nəzərdə tutulub və bu istiqamətdə işlər davam etdirilir.

### Gömrük nəzarəti gücləndirilir, ticarət asanlaşdırılır

Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş prioritet hədəflər çərçivəsində mallar və nəqliyyat vasitələri üzərində həyata keçirilən gömrük nəzarətinin səmərəliliyinin artırılması, sadələşdirilmiş gömrük nəzarəti metodlarının tətbiqi, ticarətin asanlaşdırılması, beynəlxalq miqyasda əməkdaşlığın gücləndirilməsi, tranzit potensialının inkişaf etdirilməsi, o cümlədən gömrük sisteminin beynəlxalq təcrübə nəzərə alınmaqla daha müasir model əsasında formalaşdırılması istiqamətində mütəmadi tədbirlər həyata keçirilməkdədir.

"Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnun əldə olunması ilə əlaqədar 2019-cu ildən etibarən, ümumilikdə 843 xarici ticarət iştirakçısı olmaqla, yalnız idxal üzrə 501, yalnız ixrac üzrə 102, həm idxal, həm də ixrac üzrə isə 240 xarici ticarət iştirakçısı müraciət edib. Daxil olmuş müraciətlərin təhlilinin nəticəsi olaraq 236 xarici ticarət iştirakçısına ixrac, 432 xarici ticarət iştirakçısına idxal əməliyyatları üzrə, ümumilikdə 668 xarici ticarət iştirakçısına "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququ verilib. Ötən il ərzində "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə hüququnun verildiyi şirkətlərin əməliyyatlarının ümumi idxalda həcminin xüsusi çəkisi statistik dəyər üzrə 40 faiz, ixracda isə 32.85 faiz, kənd təsərrüfatı və yeyinti məhsullarının idxalında həcminin xüsusi çəkisi statistik dəyər üzrə 62.77 faiz, ixracda isə 54.72 faiz təşkil edib.

Dövlət Gömrük Komitəsi tərəfindən mərhələli qaydada keçirilmiş 14 imtahanda iştirak üçün dolayı gömrük təmsilçiliyi fəaliyyətini həyata keçirmək istəyən 230 hüquqi şəxs Dövlət Gömrük Komitəsi tərəfindən aparılan dövlət reyestrinə daxil olunub, həmin şirkətlərin, ümumilikdə 1172 nəfər əməkdaşı ixtisas attestatı əldə etmək üçün müvafiq sənədlərlə Dövlət Gömrük Komitəsinə müraciət edib, onlardan 445 nəfərin elektron xidmətlərdən istifadə hüququ aktivləşdirilib. Hazırda 185 şirkət Dövlət Gömrük Komitəsinin reyestrində qeydiyyatdan keçməklə dolayı gömrük təmsilçiliyi fəaliyyətini həyata keçirir.

### Gömrük hüquqpozmalarına qarşı mübarizə zəifləmir

Ötən il ərzində Azərbaycanın gömrük orqanları tərəfindən əməliyyat-axtarış və hüquq-mühafizə fəaliyyətinin gücləndirilməsi istiqamətində həyata keçirilmiş kompleks tədbirlər nəticəsində 18913 hüquqpozma faktı aşkar edilib. Bu faktlardan 509-u cinayət xarakterli olub. Bu əməllərin törədilməsində şübhəli bilinən 517 nəfərin (412 Azərbaycan vətəndaşı, 105 əcnəbi) barəsində müvafiq tədbirlər görülüb.

Gömrük orqanları tərəfindən (digər hüquq mühafizə orqanları ilə birlikdə) görülən tədbirlər nəticəsində 2020-ci il ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar 111 fakt aşkar olunub, ümumilikdə 1 ton 490 kq 495 qramdan çox narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları qanunsuz dövriyyədən götürülüb. Bunların 96%-ni daha təhlükəli narkotik vasitə olan 1 ton 430 kq 538 qram heroin, 36 kq 702 qramdan çox tiryək, 5 kq 909 qram həşiş, 1 kq 169 qramdan çox marixuana, 1 kq 365 qramdan çox kokain, 15,5 qram metadon, 6 kq 354 qramdan çox metamfetamin, 1 kq 187 qram MDMA (ekstazi), 9 ədəd klonazepam, 4 kq 600 qram sulfat turşusu, 2 kq 556 qram xlorid turşusu və digər maddələr qanunsuz dövriyyədən çıxarılıb.

2020-ci il ərzində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən 108, o cümlədən 94 kişi və 14 qadın olmaqla 79 nəfər Azərbaycan vətəndaşı və 29 nəfər əcnəbi (17 İran, 5 Rusiya, 4 Gürcüstan, 1 Ukrayna, 1 Pakistan və 1 Türkiyə vətəndaşı) barəsində müvafiq tədbirlər görülüb, 12 halda bu əməlləri törədən cinayətkar dəstə ifşa edilib.

Azərbaycan Respublikası gömrük orqanları tərəfindən aşkar olunan 18404 gömrük qaydaları əleyhinə inzibati xəta faktları üzrə 2360 hüquqi şəxs (o cümlədən 861 xarici hüquqi şəxs) və 16064 fiziki şəxs (o cümlədən 11301 xarici vətəndaş) inzibati məsuliyyətə cəlb edilib.

Gömrük orqanları valyuta və valyuta sərvətlərinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üzərində nəzarəti həyata keçirərkən qanunvericiliyin tələblərini pozan şəxslərdən 340 800,0 ABŞ dolları, 2 007 491,0 rus rublu, 110 326,0 manat dəyərində 287 ədəd qızıl-zinət əşyaları, 12 848,0 manat dəyərində 531 ədəd gümüş-zinət əşyaları, 3418 manat dəyərində 62,18 qram qızıl muncuqlar və s. aşkar olunub.

İstintaq orqanının barələrində axtarış elan etdiyi 30 nəfər şəxslə bağlı zəruri əməliyyat-axtarış tədbirləri həyata keçirilərək onların yeri müəyyən edilib və istintaq orqanının sərəncamına verilib.

### Texnoloji və sosial innovasiyaların tətbiqi genişlənir

Dövlət Gömrük Komitəsi öz fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi önəm verərək bu sahədə davamlı islahatlar həyata keçirir. Komitənin internet saytında təkmilləşdirmələr aparılıb, yeni bölmələr əlavə edilib, Azərbaycan Respublikasının xarici ticarətinin gömrük statistikasına dair məlumatlara əlçatanlığın təmin edilməsi məqsədilə "Ticarət statistikası" portalının beta versiyası hazırlanıb.

İnternet üzərindən elektron ticarət yolu ilə idxal olunan malların rəsmiləşdirilməsi və nəzarətin həyata keçirilməsi məqsədilə "Sadələşdirilmiş bəyannamə - elektron ticarət" elektron gömrük xidməti istifadəyə verilib.

Gömrük-Biznes əməkdaşlığının (C2B) daha da inkişaf etdirilməsi, biznes subyektlərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, məmur-vətəndaş təmasının aradan qaldırılması və şəffaflığın təmin edilməsi məqsədilə yeni www.e.customs.gov.az portalı hazırlanıb. Elektron gömrük xidmətlərinin həmin portal üzərindən göstərilməsi nəzərdə tutulur və hazırda "Sadələşdirilmiş bəyannamə - elektron ticarət" xidmətinin bu portal üzərindən tətbiqinə başlanılıb. Həmçinin portalda xarici iqtisadi fəaliyyət iştirakçıları üçün gömrük rəsmiləşdirilməsi üzrə lazım olan sənədlərin elektron qaydada gömrük orqanlarına göndərilməsi məqsədilə "Sənədlərin qeydiyyatı" bölməsi yaradılıb.

Beynəlxalq ticarət zənciri üzrə malların vaxt və xərc itkisinə məruz qalmadan maneəsiz və sürətli hərəkətinin, o cümlədən xarici ticarət iştirakçılarına öncədən biznes proqnozlaşdırılmasının təmin olunması məqsədilə "Məcburi qərarlar" elektron gömrük xidməti hazırlanıb və istifadəyə verilib. "Smart Customs" mobil tətbiqinin yeni versiyası istifadəyə verilib, ilkin olaraq "Sadələşdirilmiş bəyannamə - elektron ticarət", "Elektron növbə", "Sürətli keçid" və "Yüngül minik nəqliyyat vasitələrinin idxalı ilə bağlı gömrük ödənişlərinin hesablanması" gömrük xidmətləri bu tətbiqə inteqrasiya edilib. Eləcə də xarici vətəndaşların elektron gömrük xidmətlərindən istifadə edə bilməsini təmin etmək üçün www.e.customs.gov.az portalında qeydiyyatdan keçmə və istifadə üzrə modulu hazırlanıb və tətbiq olunub.

"Elektron Gömrük Bəyannaməsi haqqında məlumatların əldə edilməsi" gömrük xidməti təkmilləşdirilib, idxal-ixrac olunan mala görə bank ödənişləri üzrə banklar tərəfindən edilmiş qeydlərin bankların özləri tərəfindən silinməsi və onlara düzəliş edilməsi imkanı yaradılıb. Pul köçürmələrinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə hesabat formalarında təkmilləşdirmələr aparılıb.

Poçtdaşıma və kuryer şirkətləri üçün elektron ticarət platforması hazırlanıb, həmin şirkətlər üçün fiziki şəxslərə gətirdikləri yüklərin malın dəyərinə və miqdarına görə tətbiq olunan güzəştlər nəzərə alınmaqla sadələşdirilmiş qaydada rəsmiləşdirilməsi imkanı (o cümlədən "Smart Customs" mobil tətbiqində) yaradılıb. Hazırkı dövrə qədər 44 şirkət bu xidmətə inteqrasiya olunub.

Dövlət Gömrük Komitəsinin www.customs.gov.az rəsmi internet səhifəsinin müraciətlər bölməsində "Könüllü gömrükçü" alt bölməsi yaradılıb ki, bu da öz növbəsində növbəti dəfə könüllü olmaq istəyən gənclərə rahat formada müraciət etmək imkanını verib.

### Beynəlxalq əməkdaşlığa xüsusi diqqət verilir

2020-ci ildə gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və genişləndirilməsi məqsədilə bir sıra ölkələrin gömrük orqanları ilə beynəlxalq normalara uyğun saziş, protokol və aidiyyəti sənədlərin hazırlanması istiqamətində müvafiq tədbirlər görülüb.

"Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Birləşmiş Ərəb Əmirliklərinin Federal Gömrük Orqanı arasında Saziş" layihəsi hazırlanaraq münasibətin bildirilməsi üçün qarşı tərəfə təqdim edilib.

"Azərbaycan Respublikası Hökuməti və Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş", "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Rusiya Federasiyası Federal Gömrük Xidməti arasında müəyyən növ mallara münasibətdə gömrük nəzarətinin nəticələrinin elektron şəkildə qarşılıqlı tanınması haqqında Protokol", "Azərbaycan Respublikasının Hökuməti ilə Əfqanıstan İslam Respublikasının Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı inzibati yardım və əməkdaşlıq haqqında Saziş" isə imzalanma üçün tam hazırlanıb.

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Belarus Respublikasının Dövlət Gömrük Komitəsi arasında Azərbaycan Respublikası və Belarus Respublikası arasında keçirilən mallar və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin təşkili haqqında Saziş"ə müvafiq olaraq hazırlanan "Texniki şərtlər sənədi", "Azərbaycan Respublikasının Hökuməti ilə Türkiyə Respublikasının Hökuməti arasında Avtomobil nəqliyyatı ilə tranzit daşımalar haqqında ilkin elektron məlumat mübadiləsi sisteminin yaradılmasına dair Saziş"ə müvafiq olaraq hazırlanan "Texniki şərtlər sənədi" imzalanıb.

Hesabat dövründə Dövlət Gömrük Komitəsi tərəfindən bir neçə regional və beynəlxalq səviyyəli tədbirlər də təşkil edilib.

2020-ci ilin yanvarında Bakıda ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Bergen Anlaşması"nın yeni redaksiyasının hazırlanması məsələsinin müzakirə edilməsi məqsədilə işçi qrupun iclası və ÜGT-nin Avropa Regionu üzrə Milli Əlaqələndirici Şəxslərin 3-cü iclası, ÜGT-nin Regional Kinoloji Mərkəzində isə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin gömrük idarələrinin Kinoloji Xidmətlərinin nümayəndələri üçün kinologiya sahəsində qarşılıqlı əməkdaşlıq və təcrübə mübadiləsi üzrə seminar təşkil olunub.

Fevral ayında ABŞ Hökumətinin təşkilatçılığı ilə Türkiyə Respublikasının Ədirnə şəhərində Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün "Gömrük xəttində xidmət edən zabitlər üçün sərhədlərin mühafizəsi" mövzusunda təlim, ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində ABŞ Beynəlxalq Hüquqi Araşdırmalar üzrə Müdafiə İnstitutu tərəfindən Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün beynəlxalq humanitar hüquq sahəsində təlim seminarı, mart ayında Moldova Respublikası və Ukrayna gömrük xidmətlərinin nümayəndələri üçün elektron alətlərin və avtomatlaşdırılmış videomüşahidə sistemlərinin sərhəd-keçid məntəqələrində tətbiq edilməsi sahəsində Dövlət Gömrük Komitəsinin təcrübəsinin öyrənilməsi məqsədilə təlim, aprel ayında Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanın sədrliyi ilə videokonfrans, Dövlət Gömrük Komitəsi və İran İslam Respublikasının Gömrük İdarəsinin nümayəndə heyətləri arasında onlayn rejimdə müzakirələr, may ayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv və müşahidəçi ölkələrin iqtisadiyyat nazirləri və gömrük xidməti rəhbərlərinin videokonfrans formatında müzakirələri, iyun ayında ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Ofislərinin əlaqələndirici şəxslərinin videokonfrans formatında iclası, ÜGT Şurasının sədri vəzifəsinə təyinatla bağlı məsələnin müzakirəsi məqsədilə MDB üzv dövlətlərin gömrük xidmətləri arasında videokonfrans, ÜGT Şurasının videokonfrans formatında 135/136-cı sessiyaları, iyul ayında narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə məsələləri üzrə Dövlət Gömrük Komitəsi - Mərkəzi Asiya Regional Məlumat və Əlaqələndirmə Məzkəzi - BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsi arasında üçtərəfli formatda videokonfrans, ABŞ-ın İxrac Nəzarəti və Sərhəd Təhlükəsizliyi Proqramı çərçivəsində kütləvi qırğın silahlarının yayılması ilə bağlı istintaqlar üzrə Dövlət Gömrük Komitəsinin nümayəndələri üçün onlayn təlim, sentyabr ayında Dövlət Gömrük Komitəsinin nümayəndə heyəti ilə Koreya Gömrük Xidmətinin nümayəndə heyəti arasında Gömrük Modernləşdirilməsi Layihəsi çərçivəsində videokonfrans formatında görüşlər, Azərbaycan, Əfqanıstan və Türkmənistan gömrük xidmətləri arasında gömrük və sərhəd məsələləri bölməsi üzrə alt işçi qrupun rəhbərlərinin videokonfrans formatında ikinci iclası, Dünya Bankı Qrupunun üzvü olan Beynəlxalq Maliyyə Korporasiyası ilə Dövlət Gömrük Komitəsi arasında videokonfrans formatında görüş, noyabr ayında ÜGT-nin Avropa Regionu üzrə Gömrük Xidməti Rəhbərlərinin videokonfrans formatında iclası və digər tədbirlər baş tutub.

### Gömrük infrastrukturu müntəzəm yenilənir

Ölkə ərazisinə gələn və ölkə ərazisini tərk edən şəxslər və nəqliyyat vasitələri üzərində gömrük nəzarətinin effektivliyinin daha da artırılması məqsədilə gömrük-sərhəd buraxılış məntəqələrinin mövcud infrastrukturunun genişləndirilməsi, eləcə də sərhəd-keçid prosedurlarının daha da sadələşdirilməsi məsələləri diqqət mərkəzində olub və müvafiq təkliflər hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilib.

Dövlət sərhədinin buraxılış məntəqələrindən malların və nəqliyyat vasitələrinin keçidinin daha da sürətləndirilməsi məqsədilə mal və nəqliyyat vasitələrinin qeydiyyatı, yol vergilərinin hesablanması və icazə blanklarının tətbiqi, eləcə də malların baytarlıq, fitosanitar və sanitariya nəzarətinə aid olan sənədlərinin və sertifikatlarının yoxlanılması "Bir pəncərə" üzrə "Bir inspektor - bir nəqliyyat vasitəsi" prinsipi əsasında həyata keçirilib.

Hazırda Cənub Ərazi Baş Gömrük İdarəsinin "Astara" gömrük postunda sərnişin nəqliyyatı binasının yenidən qurulması və genişləndirilməsi, nəqliyyat vasitələrinin yoxlanılması üçün "NUCTECH PB2028TD Fixed Scanner" rentgen qurğusunun tikinti işləri və dəmiryol gömrük postunda dəmir yolu üzərində "HCVT-6032" tipli X-RAY rentgen-nəzarət buraxılış məntəqəsinin tikinti işləri yekunlaşmaq üzrədir.

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Tovuz gömrük terminalı və anbarları"nın ərazisində yardımçı binaların tikinti işləri başa çatıb və ərazidə Ticarətin Asanlaşdırılması Mərkəzi istismara verilib.

### Əməkdaşlarımızın peşəkarlıq səviyyəsi artır

Ölkəmizdə bütün sahələrdə olduğu kimi, gömrük sahəsində də elm, tədris və tədqiqat fəaliyyətinə, eləcə də gömrük əməkdaşlarının ixtisas və peşəkarlıq səviyyəsinin artırılmasına xüsusi diqqət yetirilir.

Ötən il gömrük sahəsində tədris və elmi əməkdaşlıq məsələləri ilə bağlı Avropa İttifaqı üzvü olan 10 ölkə, həmçinin Türkiyə, ABŞ, Böyük Britaniyanın Azərbaycandakı səfirlikləri ilə əlaqələr yaradılıb, Litva, Latviya, Ukrayna, Almaniya, İspaniya, Koreya və Belarusun müvafiq ixtisaslar üzrə mütəxəssis hazırlığını həyata keçirən ali təhsil müəssisələri ilə ikitərəfli müqavilələr və memorandumlar imzalanıb. Dövlət Gömrük Komitəsinin Akademiyası ölkədə ilk olaraq edX MIT və Harvard Universitetinin yaratdığı "Online Campus" qlobal nüfuzlu təhsil platformasına qoşulub, həmçinin BMT Qlobal Sazişinə, UNGC-nin Məsuliyyətli İdarəetmə Təhsilinin Prinsipləri (PRME) proqramına, Qara Dəniz Universitetləri Şəbəkəsinə üzv qəbul olunub.

Gömrük Akademiyası tərəfindən Çin Xalq Respublikası, Estoniya və Şimali Makedoniyanın təhsil müəssisələri ilə əməkdaşlıq haqqında müqavilələrin imzalanmasına hazırlıq işləri görülüb, Türkiyənin üç universiteti, Qazaxıstan, Özbəkistan və Rusiyanın gömrük işinin təşkili sahəsində mütəxəssis hazırlayan ali təhsil müəssisələri və Qırğızıstan Dövlət Gömrük Komitəsinin Təlim Mərkəzi ilə əməkdaşlıq əlaqələri razılaşdırılıb.

Dövlət Gömrük Komitəsinin Akademiyası Avropa Komissiyasının qrantı əsasında 2020-2023-cü illərdə həyata keçiriləcək "ERASMUS+WORK4CE" layihəsinin Ukrayna, Belçika, Almaniya, Azərbaycan və İspaniyadan olan səkkiz ali təhsil müəssisəsinin daxil olduğu konsorsiumun üzvü olub.

Ötən il ərzində 129 tələbə, 63 gömrük əməkdaşı dünyanın müxtəlif universitetlərinin təşkil etdiyi kurslarda təlimlərə qoşulub, sonunculardan 18 nəfəri həmin universitetlərdən 41 sertifikat əldə edib. Bu platformadan istifadə üçün daha 2500 lisenziya əldə edilib. Gömrük Akademiyası ilk olaraq həm də tələbələrin və gömrük əməkdaşlarının "Coursera for Campus" proqramı çərçivəsində təlimlərə qoşulması üçün imkan yaradıb, Ümumdünya Gömrük Təşkilatının "CLiKC!" onlayn təhsil platformasında e-Learning kurslarından istifadə üzrə Milli Koordinatorun icazə sistemini bərpa edib.

### İnkişafın yeni dövrü başlayır

Şübhəsiz ki, 2020-ci ildə ölkəmizdə əldə edilən ən böyük uğur Vətən müharibəsindəki tarixi Zəfərdir! Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Vətən müharibəsi Azərbaycan xalqının birliyini, yenilməzliyini, əsgər və zabitlərimizin igidliyini, cəsarətini, qəhrəmanlığını bir daha bütün dünyaya göstərdi.

Bu zəfərin əldə olunmasında gömrük orqanlarının əməkdaşları da öz töhfəsini əsirgəməyib. Müharibənin ilk günlərindən səfərbər olunan Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin tibb kollektivi ön və arxa cəbhələrdə yaralı əsgərlərimizə zəruri tibbi xidmət göstərib, əsgərlərimizin müalicəsində aktiv iştirak edib.

Dövlət Gömrük Komitəsi sistemindən 60 əməkdaş ərazi bütövlüyünün təmin edilməsi istiqamətində ordumuzun həyata keçirdiyi hərbi əməliyyatlara qatılıb. Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə Vətən müharibəsində göstərdiyi şücaətlərinə görə təltif olunan hərbi qulluqçular arasında bir qrup gömrük əməkdaşı da var. Onlardan şəhidlik zirvəsinə ucalan əməkdaşımız Hacıyev Ülvi Şirin oğlu "Vətən uğrunda" medalı ilə təltif olunub. Həmçinin 18 qazi əməkdaşımız müxtəlif medallara layiq görülüb.

Bununla yanaşı, Dövlət Gömrük Komitəsinin əməkdaşları könüllü olaraq əməkhaqlarından Azərbaycan Ordusuna Yardım Fonduna 1 milyon, Yaşat Fonduna 580 min manat vəsait köçürüblər. Komitə tərəfindən Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidmətinə, ümumilikdə dəyəri 7 milyon 600 min manatdan çox qeyri-ərzaq məhsulları, dərman preparatları və tibbi ləvazimatlar təhvil verilib.

Vətən müharibəsindəki zəfər ölkəmizdə iqtisadi inkişaf, dövlət və ordu quruculuğu sahəsində illərdir aparılan siyasətin, eləcə də milli birliyin təcəssümüdür. Bu tarixi zəfər Azərbaycanın, eləcə də bütün regionun iqtisadi inkişafına ciddi təsir göstərməklə ölkəmizdə tamamilə yeni iqtisadi inkişaf amillərini formalaşdırıb. Əminik ki, 2021-ci ildə də Azərbaycan dövləti və xalqı qarşısına qoyduğu bütün hədəflərə çatacaq, zəfər ovqatı iqtisadi-sosial sahədə irəliləyişlərlə, böyük quruculuq və inkişaf tempi ilə müşayiət ediləcəkdir.

Öz növbəsində gömrük xidməti respublikamızın iqtisadi inkişafında iştirak etməklə ölkənin iqtisadi qüdrətinin artırılmasında, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasətin yeni uğurlar qazanmasında bundan sonra da mühüm rol oynayacaq.

*Səfər MEHDİYEV,*
*Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki*

İlin uğurlu yekunları

# İlham Əliyev tarixi abidələrimizi də işğaldan azad etdi

Əvvəli 1-ci səh.

Kəlbəcər rayonunun ərazisindəki daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslamın yayıldığı dövrlərdə yaradılıb.

Ağdam ərazisində qədim tarixə malik olan çoxlu memarlıq və incəsənət abidələri mövcud olub. Lakin ermənilər tərəfindən Ağdamda olan mədəni abidələr talan edilərək bütün infrastruktur məhv edilib. Buradakı Çörək Muzeyi, Tarix Ölkəşünaslıq Muzeyi, tarzən Qurban Pirimovun Xatirə Muzeyi və Ağdam Şəkil Qalereyası, Qutlu Sarı Musa oğlu günbəzi, XIV əsrə aid türbə və daş abidələr, Xan qızı Xurşidbanu Natəvanın və onun oğlunun türbələri, Şahbulaq qalası və Karvansara vəhşicəsinə dağıdılmışdır. Ağdam şəhərində Qarabağın özünəməxsus dini memarlığının monumental örnəklərindən biri olan Ağdam Cümə məscididir.

Təəssüf ki, işğaldan sonra Ağdam Cümə məscidinin minarələri daxildən tamamilə sökülmüş, tavanı bir neçə yerdən uçurdulmuş, daxili tərtibatı, dizayn və divar yazıları pozulmuş, hücrələri və yardımçı otaqları tamamilə uçurdulmuş, xalqımızın dini heysiyyətinə toxunularaq burada donuz saxlanılmışdır.

### Tarixboyu ermənilər alban irsinə yiyələnmək istəyiblər

Tarixboyu ermənilərin həyata keçirmək istədikləri əsas məkrli niyyətlərdən biri də Azərbaycan ərazilərindəki Qafqaz alban irsinə yiyələnmək olub. Buna görə də Qarabağda olan alban məbədlərində özününküləşdirmə, tarixi faktların saxtalaşdırılması ilə məşğul olublar. Onlar bu əməlləri ilə həmin ərazilərə olan iddialarını gücləndirmək, saxta faktlar təqdim edərək dünyanı bu yalanlarına inandırmağa çalışıblar.

Tarixi reallıqdır ki, hələ XIX əsrdə Çar Rusiyası tərəfindən Azərbaycanda xristian mədəni irsinə sahib olan udilərin, o cümlədən alban tayfalarının birbaşa erməni kilsəsinin ixtiyarına verilməsində də Qafqaz Albaniyasının xristian mədəni təməli üzərində erməni icmasının gücləndirilməsi kimi məkrli məqsədlər güdülüb. Və hələ o zamanlardan ermənilərin bura gəlmə yox, yerli xalq olması yalanına "həqiqi don" biçmək üçün Qarabağda Gəncəsər monastırında, Gədəbəy və digər bölgələrdəki alban məbədlərində alban xaçları oğurlanıb, erməni Qriqorian xaçı ilə əvəz edilmişdi. Tarixçilər bildirirlər ki, həmin dövrdə Çar Rusiyasının istəyi Azərbaycan ərazisində islam və xristian dinlərinə mənsub olan iki qütb yaratmaq idi və buna görə də yalan üzərində ermənilərin mədəni irsə sahib olmalarına şərait yaradaraq, alban sözünü də terminologiyadan çıxartmışdı. Təəssüf ki, indinin özündə də riyakar ermənilər bu saxtakarlığı davam etdirməyə çalışır, Qafqaz alban məbədlərinə sahiblik iddiası ilə çıxış edirlər.

Mənfur düşmənin talan etdiyi, saxta izlər saldığı və yiyələnmək istədiyi belə məbədlərdən biri də Kəlbəcər rayonunun Vəng kəndi ərazisindəki Xudavəng və ya Dədəvəng kompleksidir. VI-VII əsrlərdə inşa olunmuş bu abidə Azərbaycanın xristian memarlığının ən iri və ən gözəl abidələrindən biridir. Xudavəng monastır kompleksində çoxlu inşaat kitabələri və yazılar qalmışdır ki, onlarda göstərilən bir sıra adlar: Arzu xatun, Tursun, Seyti, Hasan, Avaq, Şəms, Altun, Ağbux, Qaragöz və s. bu abidəni ucaldanların etnik mənsubiyyətinin - türklüyünün dəqiq göstəricilərindən biridir.

Ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, ermənilər noyabrın 25-dək Kəlbəcəri təhvil verməli idilər. Lakin bu müddət ərzində də öz naqis əməllərindən çəkinməyən ermənilər tarixi abidələrimizə ziyan vurmaqda davam etdilər. Xudavəng monastırı da bu vandallığın qurbanlarından oldu. Belə ki, onlar Kəlbəcərdən köç ərəfəsində monastırın zənglərini, xaç daşlarını və digər qiymətli əşyaları sökərək qeyri-qanuni olaraq Ermənistana aparırdılar.

### Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir

Prezident İlham Əliyev Kəlbəcərin işğaldan azad edilməsi ilə əlaqədar xalqa müraciətində vurğuladı ki, Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir: "Tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqorian kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar. Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi. Amma biz imkan vermədik. Azərbaycanda bu məsələ ilə bağlı kifayət qədər böyük elmi baza var, əsərlər var. Bu əsərlər nəinki elmi ictimaiyyətə, bütövlükdə dünya ictimaiyyətinə çatdırılır və çatdırılmalıdır. Qafqaz Albaniyası böyük dövlət olub. Onun paytaxtı Qəbələ şəhəri olub. Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir. Biz bu kilsələri qoruyuruq".

Prezident İlham Əliyev həmin müraciətində qeyd etdi ki, Azərbaycanın multikulturalizmlə, dinlərarası münasibətlə bağlı apardığı siyasət bütün dünya ölkələri və liderləri tərəfindən təqdirlə qarşılanır: "Narahatlıq ifadə etmək istəyən bəzi Qərb dairələri bizim dağılmış məscidlərə baxsınlar, Ağdam, Şuşa, Zəngilan, Cəbrayıl, Füzuli məscidlərinə və digər məscidlərə. O məscidlər ya dağıdılıb, ya da ki, təhqir edilib, donuzlar saxlanılıb".

### Ermənilər cavab verməli olacaqlar

Erməni vandalları tərəfindən törədilən bu vəhşiliklər, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının, "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının 1999-cu il protokolunun, "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il tarixli Avropa Konvensiyasının tələblərinin pozulmasıdır. Əminik ki, çox tezliklə onlar tarixi abidələrimizə qarşı törətdikləri vəhşi əməllərinə görə hüquqi müstəvidə də cavab verəcəklər.

Qarabağda isə böyük quruculuq işləri aparılacaq, tarixi, mədəni, dini abidələrimiz bərpa ediləcək. Artıq bu istiqamətdə işlərə start verilib. Belə ki, Prezident İlham Əliyevin fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyini təmsil edən nümayəndələr abidələrin və mədəniyyət müəssisələrinin ilkin inventarlaşdırılması məqsədilə monitorinqlərə başlayıblar. Aparılan ilkin monitorinqlər zamanı 177 tarix-mədəniyyət abidəsinə, tarixi, memarlıq və arxeoloji əlamət daşıyan obyektə, habelə 368 mədəniyyət müəssisəsinə baxış keçirilib. Monitorinqlər zamanı mədəniyyət müəssisələrinin və abidələrin əksəriyyətinin dağıdıldığı, mənimsənildiyi və vandalizm aktlarına məruz qaldığı aşkar edilib.

Qeyd edək ki, hazırda da monitorinq davam edir.

### Qarabağla bağlı haqq da, həqiqət də, tarix də bizim tərəfimizdədir

Bəli, Qarabağla bağlı haqq da, həqiqət də, tarix də bizim tərəfimizdədir. Və şanlı Azərbaycan Ordusunun 44 günlük Zəfər yürüşü erməni haqsızlığına, talançılığına, vəhşiliyinə son qoydu. Düz 27 ildən sonra Ağdam Cümə məscidində azan sədası yüksəldi. Ali Baş Komandan İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva həmin məscidi ziyarət etdilər. Dövlət başçısı Məkkədən gətirdiyi müqəddəs "Quran"ı məscidə hədiyyə etdi.

Müzəffər sərkərdə bir daha həm erməni barbarlarına, həm də onların havadarları olan ölkələrə mesaj ötürdü ki, tezliklə bütün tarixi, mədəni, dini abidələrimiz bərpa olunaraq əvvəlki görkəminə qaytarılacaq. Xalqımızın min illərin o tayından adlayıb gələn tarixi kökləri qorunacaq və məkrli ermənilərin tarix səhifələrindən silməyə çalışdığı həqiqətlər olduğu kimi yenidən bərpa edilərək Azərbaycan xalqının zəngin xəzinəsi kimi gələcəyə ötürüləcək.

**_Yasəmən MUSAYEVA, "Azərbaycan"_**

---

# Zəfər salnaməsi

## Azərbaycan tarixinin 44 şərəf günü

Əvvəli 1-ci səh.

Noyabrın 11-də 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşən Müzəffər Ali Baş Komandan İlham Əliyev bu barədə dedi: "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq".

### Ağdam, Kəlbəcər və Laçın döyüşsüz azad olundu

Üçtərəfli bəyanatın bütün bəndləri Azərbaycanın milli və dövlət maraqlarına uyğun idi. Sənədin bəndləri işğal altında qalan digər rayonların da azad olunmasını nəzərdə tuturdu. Beləliklə, Ermənistanın kapitulyasiyasına uyğun olaraq noyabrın 20-də Ağdam rayonu, noyabrın 25-də Kəlbəcər rayonu, dekabrın 1-də isə Laçın rayonu Azərbaycan Ordusunun nəzarətinə keçdi. Hərbi qələbə ilə Ermənistanı məğlub edən Azərbaycan bir güllə belə atmadan bu rayonları da azad etdi. Bununla da torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsində işğaldan azad olunan rayonlarımızın sırasına Ağdam, Kəlbəcər və Laçın rayonları da əlavə olundu.

Bu rayonların azad olunması Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində xalqımızın qazandığı şanlı qələbənin nəticəsidir.

Azərbaycan Ordusu torpaqlarımızı azad etdikcə həm də bütün dünya erməni vəhşiliyinin şahidi oldu. Kənd və şəhərlərimizin dağıdılması hər bir Azərbaycan vətəndaşını göynətdi. İşğaldan azad edilmiş bütün ərazilərimiz erməni vandallığının qurbanı olub, şəhər və kəndlərimiz viran qoyulub, xalqımıza və dövlətimizə qarşı cinayət törədilib, təbiətimizə qəsd edilib. Ağdam, Cəbrayıl, Füzuli şəhərlərindən əsər-əlamət qalmayıb. Ağdam şəhərində qismən salamat məscid binası qalıb ki, onu da işğalçılar döyüşlər zamanı istiqaməti müəyyən etmək üçün saxlamışdılar.

Erməni işğalçıların Azərbaycan torpaqlarında törətdikləri bütün cinayətlər, vandallıqlar, dağıntılar qiymətləndiriləcək. 30 il ərzində bizə vurulmuş ziyan hesablanacaq və bundan sonra beynəlxalq məhkəmələrdə Ermənistana qarşı təzminat davası açılacaq. Ötən ilin noyabr ayında Ağdamı və Kəlbəcəri yandıran düşmən bunların da cavabını mütləq verəcək.

Kapitulyasiya edən Ermənistan Kəlbəcərin noyabrın 15-dək boşaldılacağı barədə öhdəlik götürmüşdü. Lakin sonradan Ermənistan möhlət istədi və Azərbaycan humanistlik edərək müddətin 10 gün uzadılmasına razılıq verdi. Amma biz əvəzində bir daha çirkin erməni xislətinin təzahürünü gördük. Qanunsuz məskunlaşdırmadan sonra evlərimizdə yaşayan və bu günlərdə rayonumuzu tərk edən ermənilər hansı vandal hisslərin daşıyıcıları olduqlarını bütün dünyaya göstərdilər. Evlərimizə od vurdular, təbiətimizə qənim kəsildilər. Noyabrın 25-də xalqımıza müraicət edərək Kəlbəcərin azad olunması münasibətilə həmvətənlərimizi təbrik edən Prezident İlham Əliyev bu məsələyə də toxunaraq dedi: "Görün, son günlər ərzində onlar hansı çirkin işlərlə məşğuldur, meşələri yandırırlar ki, ekoloji faciə, fəlakət yaratsınlar. Bu oğrular meşələri qırırlar, aparırlar ki, Ermənistanda satsınlar. Evləri yandırırlar, hansı ki, o evləri onlar tikməyiblər. Onlar kəlbəcərlilərin evlərinə giriblər, soxulublar, orada yaşayıblar. Məktəbləri yandırırlar, apara bilmədikləri ev heyvanlarını öldürürlər. Görün, biz kimlərlə, hansı vəhşilərlə üz-üzə idik!"

### Düşmənin 3,8 milyard dollarlıq hərbi texnikası məhv edildi və qənimət götürüldü

44 gün davam edən müharibədə Azərbaycan Ordusu bütün dünyaya müasir döyüşlərin aparılmasının nümunəsini göstərdi. Yüksək peşəkarlıq və döyüş əzmi göstərən ordumuz demək olar ki, Ermənistanın bütün hərbi potensialını darmadağın etdi və ya qənimət götürdü.

Prezident İlham Əliyev xalqa müraciətlərində düşmənin məhv edilmiş və qənimət götürülmüş hərbi texnikası barədə məlumat verdi. Hər ötən gün düşmənə vurulan ziyanın miqyası böyüdü. Azərbaycan əsgəri yüksək döyüş əzmi və malik olduğu müasir vasitələrlə Ermənistan ordusunu necə lazımdırsa cəzalandırdı.

Döyüşlərdə məhv edilmiş düşmənin hərbi texnikasına nəzər yetirək: 53 tank əleyhinə vasitə, 4 "Smerç" qurğusu, 97 "Qrad", 2 "Uraqan", 1 "YARS", 1 TOS odsaçan , "S-300" zenit-raket komplekslərinin 7 atıcı qurğusu, 1 "S-300" radiolokatoru, 2 "S-300" aşkaretmə stansiyası, 1 "Oborona" radiolokasiya stansiyası, 5 "TOR" zenit-raket kompleksi, 40 "Osa" zenit-raket kompleksi, 4 "KUB" zenit-raket kompleksi, 1 "KRUQ" zenit-raket kompleksi, 2 "S-125" zenit-raket kompleksi, 22 pilotsuz uçuş aparatı, 2 "Elbrus" əməliyyat-taktiki raket kompleksi, 1 "Toçka-U" raket kompleksi, 5 radioelektron mübarizə vasitələri, 2 "R-142" komanda qərargah maşını, 1 "Nebo-M" radiolokasiya stansiyası, 7 müxtəlif radiolokasiya stansiyaları və 4 "Reppelent" radio-texniki maneə vasitəsi.

Bunlardan başqa, 28 ədəd "Akasiya" və "Qvozdika" özüyeriyən artilleriya qurğusu məhv edildi, 5-i qənimət götürüldü. 315 müxtəlif çaplı top məhv edildi, 37-si qənimət götürüldü. 63 minaatan məhv edildi, 62-si qənimət götürüldü. 10 xüsusi avtomobil məhv edildi, 93-ü qənimət götürüldü. 178 qumbaraatan, 10 traktor, 5 "Şilka" zenit qurğusu, 1380 atıcı silah qənimət götürüldü. 7 komanda məntəqəsi, 11 sursat anbarı dağıdıldı. Döyüş meydanında düşmənin 287 tankı məhv edildi, 79-u qənimət götürüldü ( toplam 366 tank), 69 piyadaların döyüş maşını məhv edildi, 47-si qənimət götürüldü. 5 "Su-25" təyyarəsi vuruldu. Yük avtomobillərinə gəldikdə, 252-si məhv olundu, 270-i hərbi qənimət götürüldü.

Hesablamalar göstərir ki, düşmənin məhv edilən və qənimət götürülən hərbi texnikasının dəyəri 3,8 milyard dollar məbləğindədir.

### Şəhidlərimizin qanı yerdə qalmadı

Azərbaycan Ordusu müharibənin ilk anından son gününə qədər işğalçıya divan tutdu, necə lazımdırsa cəzalandırdı. Bu müharibədə rəşadətlə döyüşən, düşmənə göz açmağa imkan verməyən Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti isə öz mübarizliyi ilə qəhrəmanlıq simvoluna çevrildi. Əsgərlərimiz, zabitlərimiz, çavuşlarımız döyüş meydanlarından bütün dünyaya göstərdilər ki, Vətən uğrunda mübarizə necə olur. Hər bir vətən övladı igidliyin, cəsarətin, qorxmazlığın nümunəsini yaratdı, qəhrəmanlıq salnaməsi yazdı.

Müharibə itkisiz olmur, həm də torpaq uğrunda ölən varsa, vətəndir. 44 günlük Vətən müharibəsində oğullarımız ölümün gözünə dik baxdı, 2800 nəfərdən çox şəhid verdik. İşğaldan azad olunmuş vətən torpaqlarımız şəhidlərimizin qanı ilə daha da müqəddəsləşdi.

Şəhidlərimizin qanı yerdə qalmadı, hər birinin qisası döyüş meydanlarında artıqlaması ilə alındı.

Azərbaycan xalqı hər zaman mübariz övladlarının şücaətini yüksək qiymətləndirəcək, şəhidlərimizin xatirəsi hər zaman uca tutulacaq. Prezident İlham Əliyevin sərəncamı ilə 27 Sentyabrın Anım Günü kimi müəyyən edilməsi də şəhidlərimizin ruhuna olan yüksək ehtiramın nümunəsidir.

Vətənin şəhid övladlarının ruhu şaddır. Çünki hər qarışı üçün şərəflə mübarizə apardıqları, uğrunda canlarından keçdikləri Vətən torpaqları artıq işğaldan azaddır.

### Müharibə iştirakçıları təltif olundular

Prezident İlham Əliyevin dekabrın 9-da imzaladığı sərəncamla 3 hərbi qulluqçuya "Azərbaycanın Milli Qəhrəmanı", 83 nəfər hərbi qulluqçuya "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi, 33 nəfər hərbi qulluqçu "Zəfər" ordeni (3 nəfər ölümündən sonra), 204 nəfər hərbi qulluqçu "Qarabağ" ordeni ilə (48 nəfər ölümündən sonra) təltif olundu.

Dekabrın 15-də 288 nəfər hərbi qulluqçu "Azərbaycan Bayrağı" ordeni (56 nəfər ölümündən sonra), 105 nəfər hərbi qulluqçu 3-cü dərəcəli "Rəşadət" ordeni (15 nəfər ölümündən sonra), 3 nəfər hərbi qulluqçu 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, 9 nəfər hərbi qulluqçu 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, 331 nəfər hərbi qulluqçu 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (44 nəfər ölümündən sonra), 3600 nəfər hərbi qulluqçu "Vətən uğrunda" medalı ilə (2756 nəfər (ölümündən sonra) təltif edildi.

Ali Baş Komandanın dekabrın 18-də imzaladığı sərəncamla 622 nəfər hərbi qulluqçu "İgidliyə görə" medalına, 1113 nəfər hərbi qulluqçu "Döyüşdə fərqlənməyə görə" medalına, 5449 nəfər hərbi qulluqçu isə "Cəsur döyüşçü" medalına layiq görüldü.

Dekabrın 24-ü və 25-də 12522 nəfər hərbi qulluqçu "Cəbrayılın azad olunmasına görə" medalı, 13955 nəfər hərbi qulluqçu "Füzulinin azad olunmasına görə" medalı, 3549 nəfər hərbi qulluqçu "Zəngilanın azad olunmasına görə" medalı, 7991 nəfər hərbi qulluqçu isə "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Prezident İlham Əliyevin sərəncamları ilə dekabrın 29-da 9376 nəfər hərbi qulluqçu "Qubadlının azad olunmasına görə" medalına, 3572 nəfər hərbi qulluqçu "Suqovuşanın azad olunmasına görə" medalına, 4646 nəfər hərbi qulluqçu "Şuşanın azad olunmasına görə" medalına, 2267 nəfər hərbi qulluqçu "Ağdamın azad olunmasına görə" medalına, 5203 nəfər hərbi qulluqçu "Kəlbəcərin azad olunmasına görə" medalına layiq görüldü.

Ümumilikdə, 74924 nəfər Vətən müharibəsi iştirakçısı yüksək adlar, ordenlər və medallarla təltif olundu.

### Azərbaycan Ordusunun Zəfər paradı

Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirildi. Parad qəlbi Vətən sevgisi ilə döyünən hər bir azərbaycanlının qürur və iftixar mənbəyinə çevrildi. Çünki bu, həm öz torpaqlarını işğaldan azad edən yenilməz dövlətin qüdrətinin, həm də xalqımızın böyük mübarizə əzminin bütün dünyaya nümayiş etdirilməsi idi. Bu parad Vətən müharibəsindəki zəfərimizin nümayişi idi. Bu parad döyüşlərdən qalib çıxmış, düşməni dəmir yumruqla əzmiş əsgərlərimizin, zabitlərimizin, gizirlərimizin qalibiyyət yürüşü idi. Bu, hər bir azərbaycanlının sevincinin, səbirsizliklə gözlədiyi qələbəmizin paradı idi. Prezident İlham Əliyevin dediyi kimi bu paradın xüsusi önəmi var: *"Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir".*

Bu eyni zamanda müzəffər Azərbaycan Ordusunun gücünü bir daha düşmənə, onun havadarlarına - ermənipərəst dairələrə göstərdi. Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu.

Bu parad bir daha göstərdi ki, ordu quruculuğu prosesi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilib. Bunun nəticəsində Azərbaycan Silahlı Qüvvələri bu gün regionun modern texnika ilə təchiz edilən, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik bir quruma çevrilib.

Paradda həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi. Bu mənada Azərbaycan Ordusunun Zəfər paradı həm də dünya erməniliyinə, Ermənistanın havadarlarına verilən bir mesaj idi. Bundan sonra Ermənistanın bir daha Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməyə cürəti çatmayacaq.

İkinci Qarabağ müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə başa çatdı. Bu müharibədə rəşadətli Azərbaycan Ordusu İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə Ermənistanı döyüş meydanında darmadağın edərək onun işğal siyasətinə son qoydu. Ona görə bu müharibə müasir tariximizin Zəfər salnaməsinə çevrildi. Bu Qələbə Azərbaycanı qaliblər sırasına çıxardı, xalqımızı daha da böyütdü və daha güclü etdi.

**_Rəşad CƏFƏRLİ, "Azərbaycan"_**

---

# Müharibədə yaralanmış qazimiz sosial ödənişlərlə və yüksək texnologiyalı protezlə təmin olunacaq

Tarixi zəfərimizin qəhrəmanlarından biri olan Kazımov Ziya Ağami oğlunun da sosial dəstəklə təmin olunması üçün işlər aparılır.

Ziya Vətən müharibəsində ağır yaralanaraq sağ ayağını itirib. Bununla əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ona yaxın günlərdə əlillik və aylıq sosial ödənişlər təyin olunacaq. Həmçinin əlillik dərəcəsinə uyğun məbləğdə birdəfəlik sığorta ödənişi veriləcək.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, qazinin yüksək texnologiyalı protezlə təmin edilməsi də qərara alınıb. Bu məqsədlə nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində Ziyanın ilkin müayinəsi aparılıb və zəruri ölçülər götürülüb. Müəyyən hazırlıq müddətindən sonra o, yüksək texnologiyalı protezlə təmin ediləcək.

---

# Sərvəti tükənməyən AÇG

Əvvəli 1-ci səh.

AÇG-nin operatoru olan BP şirkətinin məlumatına görə, keçən ilin üç rübü ərzində AÇG-dən ümumi hasilat gündə orta hesabla 482 min barel və ya ümumilikdə təxminən 132 milyon barel, yəni 17,9 milyon ton olmuşdur. "Çıraq"dan gündəlik orta hasilat 36 min, "Mərkəzi Azəri"dən 115 min, "Qərbi Azəri"dən 118 min, "Şərqi Azəri"dən 64 min, "Dərinsulu Günəşli"dən 97 min və "Qərbi Çıraq"dan 52 min barel təşkil etmişdir.

Üçüncü rübün sonunda AÇG-də ümumilikdə 124 neft hasilatı, 39 su injektor, 7 qaz injektor quyusu istismarda olmuşdur. Üç rüb ərzində burada 10 neft hasilat və 2 suvurma quyusu qazılmışdır.

İndi AÇG 7-ci hasilat platformasının yolunu gözləyir. Belə ki, 1994-cü ilin sentyabr ayında AÇG üzrə müqavilə imzalanarkən tərəfdaşlar bu yataqların təxmini ehtiyatlarının 511 milyon ton olduğunu bildirmişdilər. Hazırda mütəxəssislər burada sərvətin daha çox - ən azı 1 milyard ton olduğu fikrini söyləyirlər. 2017-ci ilin sentyabr ayında AÇG-nin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişin imzalanması da bu amilə əsaslanır. Yeni müqavilə 2050-ci ilin əvvəlinədək davam edəcək və qarşıdakı illərdə AÇG-nin ölkəmizə gətirdiyi iqtisadi mənfəətləri maksimuma çatdıracaq.

2019-cu ilin aprel ayında AÇG-nin işlənməsinin növbəti mərhələsi olan "Azəri Mərkəzi Şərqi" layihəsinə sanksiya verilib. Bununla da 6 milyard dollar dəyərində olan işlənmə layihəsinin həyata keçirilməsinə başlanıb. Yeni platforma da bu layihə çərçivəsində inşa edilir.

"Azəri Mərkəzi Şərqi" platforması gündəlik 100 min barelədək neft hasil etmək gücündə layihələndirilib. İstismar müddəti ərzində qurğunun 300 milyon barelə qədər əlavə neft hasil edəcəyi gözlənilir. Koronavirus pandemiyasının təsirləri görülən bütün işlərdən yan keçməsə də, bu platformadan ilk nefti 2023-cü ildə əldə etmək planları dəyişməz qalır.

Platformanın üst modullarının və qazma modulunun inşası Bibiheybətdəki tikinti-quraşdırma sahəsində davam edir.

Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda dayaq blokunun payalarının inşası başa çatdırılıb. Bu qurğular uğurla Xəzərə yola salınıb və platformanın dayaq blokunu qəbul etmək üçün dənizin dibində quraşdırılıb. Dayaq blokunun və sualtı qurğuların inşası qrafikə görə irəliləyir. Mühəndis və tədarük işləri də nəzərdə tutulan qrafikə uyğun aparılır.

Qeyd edək ki, Azərbaycanın qaz potensialının da önəmli hissəsi AÇG yataqları hesabına formalaşır. Orada hasil olunan mavi yanacaq ölkəmizin ümumi qaz sisteminə daxil edilir. Belə ki, AÇG-dən çıxarılan səmt qazının bir hissəsi layların təzyiqini saxlamaq üçün yenidən kollektora vurulsa da, xeyli hissəsi Azərbaycanın daxili istifadəsi üçün Səngəçal terminalından SOCAR-a məxsus kəmərlə "Azəriqaz" şəbəkəsinə ötürülür.

Keçən ilin 9 ayı ərzində AÇG-dən SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 6 milyon kubmetr, ümumilikdə isə 1,6 milyard kubmetr səmt qazı verilib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

Hazırda AÇG-də BP 30,37, SOCAR 25, MOL ( ötən il aprelin 16-dan "Şevron" şirkətini əvəz edib) 9,57, İNPEKS 9,31, "Ekvinor" 7,27, "EksonMobil" 6,79, TPAO 5,73, İTOÇU 3,65, ONGC Videş Limited (OVL) 2,31 faiz payla iştirak edirlər.

"Azəri-Çıraq-Günəşli"dən çıxarılan neft sualtı kəmərlərlə Səngəçal terminalına çatdırılır. Xatırladaq ki, bu, dünyanın ən böyük neft-qaz terminallarından biridir. Başlanğıcını buradan götürən Qərb İxrac Boru Kəməri (Bakı-Supsa marşrutu) və Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri AÇG neftini dünya bazarlarına nəql edirlər.

**_Flora SADIQLI, "Azərbaycan"_**

---

# Tovuz fermerləri üzümçülüyün inkişafında maraqlıdırlar

Əvvəli 1-ci səh.

Həmin illər Tovuz rayonunda 10 min hektara yaxın sahədə üzüm plantasiyaları salınaraq illik məhsul istehsalı 120 min tona çatdırılmış, rayon ərazisində 12 şərab emalı zavodu fəaliyyət göstərmişdir. Lakin 80-ci illərin ortalarından başlayaraq keçmiş Sovet İttifaqının rəhbərliyi tərəfindən aparılan antialkoqol kampaniyası çərçivəsində Azərbaycanda da böyük zəhmət hesabına yaradılmış üzüm bağları məhv olunmuş, insanlar bu gəlir mənbələrindən məhrum edilmişlər. Nəhayət, 15 dekabr 2011-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" təsdiq edilərək icrasına başlanılmışdır.

Proqramın icrası istiqamətində Tovuz rayonunda da çoxsaylı tədbirlər həyata keçirilmiş, o cümlədən rayon üçün ənənəvi olan bu sahənin dirçəldilməsi ilə bağlı torpaq mülkiyyətçiləri arasında geniş maarifləndirici işlər aparılmış, üzümçülüyün iqtisadi səmərəliyi təşviq olunmuşdur. Hazırda Tovuzda 794 hektar üzüm bağı vardır ki, bunun da 720 hektarı məhsul verir. Üzüm bağlarının 654 hektarı süfrə, 140 hektarı texniki üzüm sortlarıdır. Keçən il rayonda 17712 ton üzüm



istehsal olunmuşdur. Məhsulun bir hissəsi rayonda fəaliyyət göstərən soyuduculara vurulmuş, qalan hissəsi daxili bazarlarda satılmışdır. Texniki sortlardan əldə olunan məhsul isə sərfəli qiymətlərlə 2019-cu ildən rayondakı üzüm emalı müəssisəsinə təhvil verilmişdir.

Hazırda üzüm bağlarının sahələrini genişləndirmək istiqamətində tədbirlər görülür. Bu işlər icra hakimiyyətinin diqqət mərkəzindədir. Elə bu günlər rayon rəhbərliyi sahələrdə aparılan becərmə işləri ilə yaxından tanış olmuş, üzümçülüyün inkişafı və iqtisadi səmərəsi ilə bağlı fermerlərlə fərdi söhbətlər aparmış, intensiv üsulla salınan üzüm plantasiyalarının genişləndirilməsinin zəruriliyi barədə fikir mübadiləsi aparmışdır.

**_Sabir ƏLİYEV, "Azərbaycan"_**

Arxa cəbhənin qəhrəmanları

# İnformasiya savaşının əsgəri

**Azərbaycanda sosial şəbəkələrdə ən çox izləyicisi olan portalın rəhbəri Hacıbəy HEYDƏRLİ:**

## "Prezident İlham Əliyev hərbi qələbə qazanmaqla yanaşı, informasiya müharibəsində də erməniləri diz çökdürdü"



**Ermənistanın hərbi təxribatına cavab olaraq başlanan Vətən savaşı cəmi 44 günə Azərbaycanın qələbəsi ilə başa çatdı. Bu müddətdə şanlı Ordumuz döyüş meydanında düşmənə sarsıdıcı zərbələr endirdiyi kimi, arxa cəbhədə də informasiya müharibəsində üstünlük qazandıq. Müharibə yeni başlayan dövrdə dünyanın bir çox media qurumları açıq-aydın bizə qarşı qərəzli mövqe nümayiş etdirirdilər. Onlara qarşı informasiya blokadasını xarici KİV-ə verdiyi müsahibələrlə Azərbaycan Prezidenti İlham Əliyev şəxsən özü yardı.**

Bu müddətdə dünyanın əksər aparıcı mediası dövlət başçısından müsahibələr aldı. Düşmən tərəfindən maliyyələşdirilən, erməni lobbisinin əlində oyuncağa çevrilən bəzi jurnalistlərin ən qərəzli suallarına belə cavab verməkdən yayınmayan Prezident nə dərəcədə hazırlıqlı olduğunu nümayiş etdirməklə yanaşı, Azərbaycanın haqlı mövqeyini, işğala məruz qaldığını, beynəlxalq hüququn bizim tərəfimizdə olduğunu sübut etdi. Azərbaycanın apardığı düzgün və ağıllı informasiya siyasəti Qarabağda baş verən həqiqətlərin dünyaya çatdırılmasına imkan verdi. İlham Əliyev informasiya savaşını da Zəfərlə bitirdi.

### İlklərin müəllifi

Bu savaşda fəal gənclərin də xüsusi rolu oldu. Onlar informasiya savaşının əsgərləri olaraq vətən müharibəsi başlayan gündən öz cəbhələrində vuruşdular. Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gənclərə çağırışına cavab olaraq, onlar informasiya müharibəsinin əsgərlərinə çevrilib bu mübarizəyə qoşuldular. Azərbaycanın haqq səsini dünyaya çatdırmaq, Ermənistanın işğalçılıq siyasətini ifşa etmək üçün gənclərimiz təbliğat apardılar.

İnformasiya savaşının fəal əsgərlərindən biri də azxeber.com saytının təsisçisi və baş redaktoru Hacıbəy Heydərli olub. Hacıbəy 13 aprel 1991-ci ildə Bakıda dünyaya gəlib. 2008-ci ildə Binəqədi rayon 283 nömrəli məktəbi bitirib. Həmin il Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinə daxil olub. I kursda təhsil alarkən Azərbaycanda tələbə jurnalistlərin ilk bloqunu yaradıb. Tələbəlik illərində BDU-da 2 dəfə "İlin tələbəsi" seçilib.

2010-cu il aprelin 13-də o, tələbə yoldaşı Əfsələddin Ağalarovla birlikdə Azərbaycanda tələbə jurnalistlərin ilk xəbər saytı olan azxeber.com-u təsis edib və qısa müddətdə ölkənin ən çox oxunan saytları sırasına daxil olub.

Hacıbəy Heydərli 2012-ci ildə ABŞ-da yeni media və bloggerlik təlimi keçib. ABŞ Dövlət Departamenti tərəfindən "New Media and Blogging" təlimlərində iştirak edib və sertifikata layiq görülüb. Həmin təlim çərçivəsində ABŞ-ın ən nüfuzlu media orqanlarından "New York Times", "Washington Post" kimi qəzetlərin redaksiyasında olub.

Gənc jurnalist, eyni zamanda qardaş Türkiyənin ATV, AHaber, DHA, Sabah, Takvim, Hürriyet kimi nüfuzlu media orqanlarının redaksiyalarına gedib, onların iş prinsipləri ilə yaxından tanış olub.

Hacıbəy tələbəlik illərində həm də "İrəli Media Akademiyası" və "Bakı Jurnalistika Məktəbi"ndə də təhsil alıb və hər iki media məktəbini fərqlənmə ilə bitirib. Daha sonra "İrəli Media Akademiyası"na, "İrəli Radio"ya rəhbərlik edib.

İctimai fəaliyyətlə də məşğul olan jurnalist bir çox gənclər təşkilatı və QHT-lərin layihələrinin rəhbəri olub. Türkiyənin İstanbul şəhərində "Xocalıya ədalət!" həftələrində iştirak edib. Qardaş ölkədə baş tutan "Bayrağınla yüksəl - Azərbaycan" tədbirinin də təşkilatçılarındandır. Azərbaycanda ilk dəfə gənc jurnalistlərin futbol yarışması layihəsinin icraçısı olub. Gürcüstanda, Monteneqroda, İtaliyada, Ukraynada, Moldovada, Estoniyada, Finlandiyada, Macarıstanda keçirilən bir sıra beynəlxalq tədbirlərə qatılıb, Monteneqro televiziyalarında çıxış edib.

### Xarici mediada Azərbaycan həqiqətlərini yayanlardan biri

Sayt rəhbəri gənc yaşda bu qədər uğur qazanmasının formulunu sevdiyi işlə məşğul olmaqda görür:

- Əgər sən sevdiyin işlə məşğulsansa və özünü burada tapırsansa, perspektiv görürsənsə, uğur özü sənin arxanca gələcək. Əgər pulu, ailəni düşünüb, başqa, lakin sevmədiyin bir işlə məşğulsansa, orada uğur qazanmayacaqsan. Götürək elə bizim işi, çox da böyük gəlir əldə etmirik, lakin məni burada saxlayan peşəyə olan maraq və sevgidir. Hətta bəzən ruhdan düşdüyüm məqamlar da olur ki, o zaman sayta xəbər yerləşdirməklə əhvali-ruhiyyəmi düzəldirəm (gülür). Bir də mütləq səbirli olmalısan. Sevgi və səbir olduqda uğur özü səni izləyəcək.




Azxeber.com informasiya portalı Azərbaycanda sosial şəbəkələrdə ən çox izləyicisi olan saytlardandır. Saytın "Facebook" səhifəsini 620 mindən çox insan bəyənir, 700 minə yaxın izləyicisi var. "Instagram"da xəbər saytını 600 minə qədər insan bəyənib. Son zamanlar ölkəmizdə populyarlaşan və ictimai rəyə təsir edən "Telegram"da saytı 30 minə yaxın insan izləyir. Portalın gündəlik ziyarətçi sayı isə 40-70 min arası dəyişir.

Sayt pandemiya dövründə ən fəal KİV-dən biri olub. 2020-ci ilin əvvələrində başladılan "#evdəqal" kampaniyası ilə bağlı layihələr həyata keçirib.

44 günlük Vətən müharibəsi ərzində informasiya müharibəsində aktiv rol oynayan saytın həm özündə, həm də sosial şəbəkə səhifələrində 20 mindən çox məlumat yayımlanıb. Müharibə dövründə güvənib xəbər mənbəyi rolunu oynayaraq rəsmi məlumatları yaymaqla yanaşı, düşmən təxribatlarının da qarşısının alınmasında xüsusi rol oynayıb.

Hacıbəy Heydərli 44 günlük Vətən müharibəsi zamanı həm ölkə daxilində, həm də ölkə xaricində bir çox media orqanlarına, televiziyalara açıqlamalar verərək düşmənin yalanlarını ifşa edib. Türkiyənin TVNET, Ulusal Kanal, TGRT Haber kimi nüfuzlu televiziyalarına, çoxsaylı qəzet və saytlarına açıqlamalar verib. Bərdə, Gəncə terrorları zamanı Türkiyə televiziyalarının canlı yayımlarına qatılaraq ermənilərin xain hücumları, mülki əhali arasında çoxsaylı itkilərin və yaralıların olması barədə qardaş ölkə ictimaiyyətinə dolğun məlumat çatdırıb. Eyni zamanda Azərbaycanın döyüş meydanında qazandığı uğurlar, işğaldan azad edilən torpaqlarımız və Türkiyə-Azərbaycan qardaşlığı barədə bəhs edib.

### Ali Baş Komandanın mükəmməl örnəyi

Sayt rəhbəri ermənilər tərəfindən əsir götürülən əsgərlərimiz Amin Quliyev və Bayram Kərimovun geri qaytarılması üçün sosial mediada "#givebackamin" və "#givebackbayram" kampaniyalarının fəal iştirakçılarından olub və bütün dünyanın diqqətini erməni vəhşiliyinə məruz qalan əsgərlərimizə cəlb etməyə çalışıb:

- Müharibə yalnız ön cəbhədə deyil, arxada - informasiya cəbhəsində də gedirdi. Ermənistan informasiya savaşında da ciddi təxribat törədir, daim yalan məlumatlar yayır, dünya ictimaiyyətini çaşdırmağa çalışırdı. Mən də həmin yalanları öz cəbhəmdə ifşa etməyə çalışırdım. Həm saytımızda, həm də sosial media hesablarımızda günün 20-22 saatı xəbər istehsal edirdik. Xüsusən son zamanlar populyarlaşan "Telegram"da düşmən təxribatı sərhəd tanımırdı. Mən həm öz "Telegram" kanalımızda, həm də rus və erməni kanallarında düşmənə cavab verirdim. Təsadüfi deyil ki, buna görə bir çox erməni kanalında blok olunmuşam. Düşmən təxribatı saytımızdan da yan keçməyib. Ermənilər müxtəlif sosial şəbəkələrdə "azxəbər" adında hesablar açaraq, orada yalan məlumatlar yaymağa çalışırdılar, müharibə dövründə və ondan əvvəlki dövrdə saytımıza dəfələrlə haker hücumları oldu. Hətta düşmənin davamlı şikayətlərinə görə, "Twitter" kanalımız bağlandı. Ancaq bu bizi qorxutmadı, əksinə, daha da gücləndirdi. Çünki cənab Prezidentin dediyi kimi, bizim işimiz haqq işidir.

Ancaq hələ arxayınlaşmalı deyilik, çünki informasiya müharibəsi davam edir. Əvvəlki illərdə biz bu qədər professional şəkildə informasiya müharibəsi apara bilmirdik. Açığını demək lazımdır ki, indiyə qədər erməni lobbisi və erməni mediası ilə bağlı böyük miflər yaradılmışdı. Amma Ali Baş Komandanın rəhbərliyi ilə elə bir şərait, elə bir beynəlxalq vəziyyət yaradıldı ki, diplomatik müstəvidə də onlar heç bir addım ata bilmədilər və böyük şok keçirdilər. Prezident İlham Əliyev təkbaşına informasiya müharibəsində düşmən haqda mifləri məhv etdi. Ermənilərin nə qədər aciz olduğunu bütün dünyaya göstərdi. Çox qürurluyuq ki, bu müharibədə hərbi müstəvidə böyük qələbə qazanmaqla yanaşı, Prezidentimiz həm də informasiya savaşında erməniləri diz çökdürdü.

H.Heydərli deyir ki, bu gün ön cəbhədə müharibə bitib, Azərbaycan öz tarixi torpaqlarını geri qaytarıb, 30 ildir icra olunmayan BMT qətnamələrini yerinə yetirib. Buna baxmayaraq, o da reallıqdır ki, bəzi xarici qüvvələr Azərbaycanın bu haqlı qələbəsini gözdən salmağa çalışır, qondarma rejimi tanımağa yönəlik addımlar atmaq istəyirlər. Bu isə qarşıda bizi hərbi fazadan daha aktiv olan diplomatik və informasiya müharibəsinin gözlədiyini göstərir. Bu baxımdan sayt rəhbəri Azərbaycanda sosial şəbəkə hesabları, səhifələri və kanallarının koordinasiya edilməsi ilə bağlı təklif irəli sürüb.

### Sosial şəbəkələrdəki fəaliyyət koordinasiya olunmalıdır

H.Heydərlinin sözlərinə görə, bu gün ictimai-siyasi proseslərlə maraqlanmayan çox sayda insanın məlumatı yalnız sosial şəbəkələrdən aldığı informasiyalardır. Xeyli insan "Instagram" səhifələrini bütövlükdə media hesab edir və orada paylaşılan məlumatlara inanır. Həmin adminlərin çoxu jurnalist deyil, ancaq səhifələrində 400-500 min adam olduğuna görə peşəkar jurnalistlərdən daha çox təsir gücünə malikdirlər.

- Çox istərdim ki, həmin səhifə adminləri ilə bağlı dövlətimizin bir proqramı olsun. Çünki düşmən bu gün də azərbaycanlı adlarla profillər, səhifələr açır, saxta və feyk məlumatlar yaymağa çalışır. Ona görə də sosial şəbəkə hesablarını, "Instagram", "Facebook" səhifələrini, "Telegram" kanalını özündə birləşdirən bir quruma ehtiyac var. Qurum məsləhətverici xarakter daşıya bilər. Sosial şəbəkə səhifələrini koordinasiya etməklə yanaşı, səhifə adminlərinə həssas məqamlarda nəyi paylaşmaq olar, nəyi olmaz mövzusunda təlimlər keçmək lazımdır. Bu, müharibədən keçən bir ölkə üçün çox vacibdir. Tam əminliklə deyə bilərəm ki, həmin səhifə adminlərinin, bloggerlərin çoxu dövlətə bağlı gənclərdir. Mənəvi dəstək göstərməklə onları daha da stimullaşdırmaq olar.

Fikrimcə, yeni yaradılan Medianın İnkişaf Agentliyi bu istiqamətdə mühüm işlər görə bilər. Ən azından elan edilən müsabiqələrin istiqamətlərinə uyğun yazıların yarım milyonluq səhifədə paylaşılması daha məqsədəuyğundur. Bundan başqa, müsabiqələrə bloggerləri, "influincer"ləri də cəlb etmək lazımdır. "Instagram"da milyona yaxın izləyicisi olan bloggerlər var. Onların bir "story" paylaşımı ölkə gündəminə təsir edə bilər. Həmin şəxsləri də yaradılacaq quruma cəlb etmək vacibdir. Bu, həm də onlara dövlətin münasibətini göstərəcək və həssas məqamlarda heç vaxt antimilli fəaliyyət aparmayacaq, yalan, saxta məlumat yayıb düşməni sevindirməyəcəklər.

Jurnalist söyləyir ki, son zamanlar ölkəmizdə geniş yayılan "Telegram" sosial şəbəkəsindəki 50-100 minlik xəbər kanalları ilə də əməkdaşlıq edilsə, yalan, saxta məlumatların qarşısı alınar və onlar dövlətçi mövqedən çıxış edərlər. Çünki düşmən bu sosial şəbəkədə çox fəaldır. Bundan başqa, H.Heydərli "Facebook" və "Instagram"da aktiv olan "influencer"lərə və bloggerlərə də diqqət ayırmağı lazımlı hesab edir. Onların da cəmiyyətə təsir gücü var. Xəbər saytları, agentliklər, TV-lər də həmin şəxslərlə əməkdaşlıq etsə, bu, onlara stimul verərək daha peşəkar çalışmalarına yardımçı olar.

*Bütün bu addımların əsas məğzi cəmiyyətimizə, xalqımıza daha faydalı məlumatlar verməkdən, yalan, saxta, şayiə tipli xəbərlərin qarşısını almaqdan ibarətdir. Bu həm də informasiya müharibəsində çox önəmlidir. Unutmayaq ki, ön cəbhədə döyüş başa çatsa da, arxa cəbhədə, informasiya sahəsində müharibə hələ çox davam edəcək.*

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Ağdamda düşmənin atəşi nəticəsində dağılmış evlər yenidən tikilir







**Ötən il sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin mərmi və raket atəşinə tutulması nəticəsində Ağdam rayonunda da mülki əhaliyə, evlərə, mənzillərə, dövlət əmlakına, infrastruktur obyektlərinə xeyli ziyan dəyib.**

Bir neçə gündür ki, digər cəbhəyanı rayonlarda olduğu kimi, Ağdamda da mülki əhaliyə məxsus fərdi evlərin tikintisi və bərpasına başlanılıb. Bərpa və təmir-tikinti işləri Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən həyata keçirilir. AZƏRTAC xəbər verir ki, Ermənistan silahlı bölmələrinin atəşi nəticəsində Ağdam rayonunun yaşayış məntəqələrində, ümumilikdə, 1500-dən çox evə, həmçinin onlarla qeyri-yaşayış sahəsi, sahibkarlıq obyekti, sosial və inzibati binalara, infrastruktura və kənd təsərrüfatına ziyan dəyib. Təmiri və bərpası mümkün olmayan yaşayış evlərinin əvəzində yeni evlərin inşası nəzərdə tutulur. Hazırda yeni inşa ediləcək fərdi evlərin bünövrəsi qazılır və beton işləri görülür. Tikinti işləri ilə əlaqədar əraziyə kifayət qədər işçi qüvvəsi və texnika cəlb olunub, inşaat materialları gətirilib.

Rayon sakinləri düşmən təxribatları zamanı dəymiş ziyanın aradan qaldırılması istiqamətində görülən işləri müsbət qiymətləndirərək, dövlət başçısına minnətdarlıqlarını bildirirlər. Erməni hərbçilərinin yaşayış məntəqələrini atəşə tutması nəticəsində evi dağılmış Xındırıstan kənd sakini Elnur İsmayılov deyib: "Düşmənin artilleriya atəşi zamanı mərmilərdən biri də mənim evimə düşmüşdü. Ancaq buna görə məyus olmadım. Əsas odur ki, torpaqlarımız işğaldan azad edildi. Evimiz 3 otaq və mətbəxdən ibarət idi. İndi isə 4 otaq və mətbəxdən ibarət yeni ev tikilir. Evin layihəsindən və görülən işdən çox razıyam. Buna görə Prezidentimizə minnətdarlığımı bildirirəm".

# Ağdam təhsilindəki problemlər narahatlıq doğurur

**Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müzəffər sərkərdə qüdrəti, Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində Qarabağ işğaldan azad olunmuş, düşmən torpağından xilas edilən ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərinə başlanmışdır.**

Ağdam rayonu ərazisinin də xeyli hissəsi erməni işğalı altında idi. Qalan ərazidə isə dövlətin davamlı qayğısı sayəsində geniş quruculuq işləri aparılmışdır. İşğal nəticəsində isti yuvasından, doğma ev-eşiyindən perik salınıb məcburi köçkün kimi ölkənin müxtəlif bölgələrinə səpələnmiş rayon əhalisinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq üçün 18 yeni qəsəbə salınmış, həmin qəsəbələrdə müasir tələblərə cavab verən sosial infrastuktur yaradılmışdır.

Ümumi inkişaf fonunda rayon təhsilinin maddi-texniki bazası təzə tikilən, əsaslı şəkildə yenidən qurulan, müasir avadanlıqlarla təchiz olunan məktəblər hesabına daha da möhkəmlənmişdir. Lakin çox təəssüflər ki, Ağdam Rayon Təhsil Şöbəsi öz işini dövlətin qayğı və diqqətinə, yaradılan şəraitə cavab verəcək səviyyədə qura bilmir, ayrılan dövlət vəsaitinin israfına, hətta bəzən sui-istifadəsinə yol verir.

Məlumat üçün bildirək ki, rayonda 135 ümumtəhsil məktəbi var. Müəllimlərin sayı 3899, şagirdlərin sayı isə 23150 nəfərdir. Orta hesabla hər 6 şagirdə bir müəllim düşür. 5 ildir ki, rayon təhsil şöbəsinə Mətanət Misirxanova rəhbərlik edir. O, bu vəzifəyə uşaq bağçasının müdirliyindən gətirilmişdir. Təhsil sahəsindəki mövcud silsilə nöqsanların təhlilinə keçməzdən öncə bir faktı qeyd etmək yerinə düşər: ötən ilin iyulunda Mətanət xanım pandemiya dövrünün qadağalarına məhəl qoymayaraq övladına təmtəraqlı nişan məclisi keçirmişdir. Görüntüləri sosial şəbəkələrdə yayılan məclisin keçirilməsi rayon əhalisində haqlı narazılığa səbəb olmuşdu. Yuxarı dövlət qurumlarına ünvanlanan çoxsaylı müraciətlərdə bir sual qırmızı xətt kimi keçirdi: dövlət məmuru, vəzifə sahibi öz övladına xeyir iş edə bilirsə, bizə nə üçün qadağa qoyulur?

Ağdamın işğalından sonra rayonun ümumtəhsil məktəbləri fəaliyyətlərini respublikanın 13 şəhər və rayonunda davam etdirir. Mingəçevir şəhərində qaçqın və məcburi köçkünlər üçün inşa edilmiş qəsəbədə 594 şagirdlik müasir məktəb inşa olunmuşdur. Qəribə olsa da, indi burada 47 və 52 nömrəli köçkün tam orta məktəbləri fəaliyyət göstərir. Hər iki məktəb üzrə şagirdlərin ümumi sayı cari tədris ilində 346 nəfər olmuşdur. Belə olan halda bir binada iki məktəbin fəaliyyətinə hansı lüzum var? Təəssüf ki, bu, müstəsna hal deyil. 2015-ci ildə Mingəçevir şəhəri ərazisində məcburi köçkünlər üçün salınan yeni qəsəbədə inşa edilmiş məktəb binası rayonun 51 nömrəli məktəbinin istifadəsinə verilmişdir. Rayon təhsil şöbəsinin heç bir qanuni əsası olmayan qərarı ilə 50 nömrəli köçkün tam orta məktəbi də buraya köçürülmüşdür. Başqa analoji fakt: 2016-cı ildə Ağdam rayonunun İmamqulubəyli kəndi ərazisində inşa edilən qəsəbədə yeni məktəb binası 135 nömrəli köçkün tam orta məktəbin istifadəsinə verilmişdir. Rayon təhsil şöbəsinin göstərişi ilə əlavə olaraq 87 və 92 nömrəli məktəblər də bu binaya köçürülmüşdür. Halbuki hər üç məktəb üzrə şagirdlərin ümumi sayı 440 yerlik yeni məktəb binası üçün ağırlıq yaratmır. Bəs bir ünvanda üç məktəbin yerləşdirilməsi hansı zərurətdən doğur? Bunun xeyrini, zərərini niyə araşdıran yoxdur?

Ağdam Rayon Təhsil Şöbəsi təhsil sahəsindəki "yenilik"lərini inamla davam etdirir, məqam gələndə isə hətta genişləndirir. 2017-ci ildə Bərdə rayonunun Həsənqaya kəndi ərazisində inşa olunmuş yeni yaşayış məhəlləsində üç mərtəbədən, 44 sinif otağından ibarət olan məktəb binası 12 nömrəli köçkün tam orta məktəbin istifadəsinə verildi. Çox keçmədi ki, rayon təhsil şöbəsinin diktəsi ilə 11 və 95 nömrəli köçkün tam orta məktəbləri də bu ünvana köçürüldü. Çox yaxşı, dövlətin istəyi də budur ki, onun sabahının qurucuları geniş, işıqlı, rahat sinif otaqlarında təhsil alsınlar, savadlı, vətənpərvər, yüksək intellektual səviyyəyə malik vətəndaş kimi formalaşsınlar. Bəs, dövlətin bu qayğısından sui-istifadə etməyin anlamı nədir? Niyyət xoş olsa, bir binada 3 deyil, 1 məktəb saxlamaqla da dövlətin qarşıya qoyduğu hədəflərə çatmaq mümkündür. Axı, lüzumsuz yerə bir ünvanda 3 məktəbin saxlanılması dövlət büdcəsinin yükünü süni sürətdə artırır. Həm də o dövlətin ki, dünya ölkələri iqtisadi böhran sınağında çapaladığı bir zamanda bizim rahatlığımız üçün vəsait xərcləyib yollar çəkir, körpülər salır, yeni-yeni məktəblər, xəstəxanalar tikir. Elə isə vətəndaş olaraq biz dövlət qarşısındakı borcumuzu niyə dərk edib dəyərləndirmirik. Onun büdcəsini qoruyub artırmaq əvəzinə şəxsi maraqlarımız üçün çalışır, "nə gedir, bağdan gedir" psixologiyası ilə yaşayırıq. Ağdam Təhsil Şöbəsi də bir ünvanda 2-3 məktəbin fəaliyyətinə şərait yaratmaqla lüzumsuz yerə yüzlərlə əlavə ştatın saxlanmasına, dövlət büdcəsinin talan edilməsinə rəvac verir.

Alıbəyli-2 qəsəbəsində tam orta məktəb binası xeyli vaxtdır ki, qəzalı vəziyyətdədir. Rayon icra hakimiyyəti Fövqəladə Hallar Nazirliyinin köməyi ilə məktəb ərazisində çadırlar quraraq tədrisin davam etdirilməsinə nail olmuşdur. Proseslərin iştirakçısı olan təhsil şöbəsi isə dövlətin yaratdığı imkandan problemin həlli üçün istifadəyə təşəbbüs belə göstərmir.

Rayon təhsil şöbəsinin təqdimatı əsasında hər il zəruri sayılan ərazilərdə dövlət vəsaiti ilə modul tipli məktəblər inşa olunur. Alıbəyli-2 qəsəbə tam orta məktəbində 125 şagird təhsil alır. Məktəb binasının hər an uçmaq təhlükəsi var. Təhsil şöbəsi isə vəziyyətdən məlumatlı olsa da, modul məktəblərin tikintisi ilə bağlı nazirliyə təqdimat yazarkən Bərdə rayon ərazisində bir-birinə çox yaxın yerləşən 9 və 122 nömrəli məktəblər üçün modul sinif otaqlarının inşasının vacibliyini göstərmiş və həm də təkcə göstərməmiş, həmçinin onların tikilib istifadəyə verilməsinə nail olmuşdur. Araşdıranda məlum olur ki, 9 nömrəli köçkün tam orta məktəbin direktoru Tofiqə Nuriyeva rayon təhsil şöbəsinin müdiri Mətanət Misirxanovanın qohumudur. Canıyananlıq da məhz burdan qaynaqlanırmış.

Xüsusi təhsilə cəlb edilmiş sağlamlıq imkanları məhdud olan şagirdlərlə aparılan iş sahəsində də ciddi nöqsanlar mövcuddur. Təhsil Nazirliyinin büdcəyə nəzarət xidməti tərəfindən aparılmış monitorinq nəticəsində sağlamlıq imkanları məhdud şagirdlərin sayı 200 nəfər müəyyən edilsə də, onların sayı təhsil şöbəsi tərəfindən artırılaraq 302 nəfərə çatdırılmışdır. Vətəndaşların şikayətləri əsasında ümumtəhsil məktəblərində aparılan monitorinqlərlə müəyyən edilmişdir ki, sağlamlıq imkanları məhdud olan şagirdlərin böyük əksəriyyətinə müəllimlər tərəfindən fərdi qaydada ev şəraitində dərs keçilmir. Hətta bəzən əqli və fiziki cəhətdən sağlam olan şagirdlər məqsədyönlü şəkildə sağlamlığı qüsurlu şagird kimi sənədləşirilir və güya onlara ev şəraitində dərs keçildiyi göstərilir. Bununla da dövlət büdcəsindən xeyli miqdarda vəsait mənimsənilir.

Təhsil Nazirliyinin "Fərdi təhsilin təşkili" haqqında müvaqif əmrinə əsasən, cari tədris ilində 52 şagird bu cür təhsilə cəlb edilmişdir. Qaydalara uyğun onlara dərs məşğələləri ayrıca sinif otaqlarında keçirilməli və xüsusi dərs cədvəli hazırlanmalıdır. Lakin reallıq budur ki, fərdi təhsilə cəlb edilmiş şagirdlərə dərs ümumi qaydada tədris olunur. Bu da əlavə olaraq büdcədən xeyli vəsaitin mənimsənilməsi ilə nəticələnir.

Bəzən təhsilin reytinqini məzunların ali məktəblərə qəbulunun nəticələri ilə müəyyən edirlər. Bu müqayisənin düzgün olub-olmadığını söyləmək çətindir. Amma qeyd etməliyik ki, Ağdamda bu sahədə qazanılan az-çox uğur repititor müəllimlərin haqqıdır. İnkaredilməz həqiqətdir ki, yuxarı sinif şagirdləri məktəblərə deyil, repititor müəllimlərin yanına gedirlər. Təhsil ocaqlarında isə dərslər keçirilməsə də, sinif jurnallarında saxta qeydlər aparılır, hətta şagirdlərin biliyi də qiymətləndirilir. Beləcə jurnallar yazılır, keçilməyən dərslərə görə əməkhaqqı verilir. Amma göz önündə olan bu saxtakarlığa görə heç kəs məsuliyyət daşımır.

Yəqin ki, Təhsil Nazirliyi məqalədə qeyd edilən və diqqətdən kənarda qalan digər nöqsanlara aydınlıq gətirib lazımi tədbirlər görəcək.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## "National Geographic" "Instagram" səhifəsində Ağdam şəhərində ermənilərin törətdikləri dağıntıları əks etdirən fotolar paylaşıb

"National Geographic" özünün "Instagram" səhifəsində Azərbaycanın işğaldan azad edilmiş Ağdam şəhərində ermənilərin törətdikləri dağıntıları əks etdirən fotolar paylaşıb.







AZƏRTAC xəbər verir ki, "National Geographic"in paylaşımında bir vaxtlar 40 min əhalinin yaşadığı, bu yaxınlarda azad edilmiş Ağdam şəhərinin təxminən 30 il Ermənistanın işğalı altında qalması nəticəsində dağıntılar içində olduğu bildirilir. Qeyd edilir ki, 1993-cü ildə Ermənistan-Azərbaycan münaqişəsi zamanı Ağdam işğal olunduqdan sonra şəhərdə məsciddən başqa bütün tikililər dağıdılıb. Uzun sürən münaqişə bir milyondan çox insanın köçkün düşməsinə səbəb olub.

Paylaşımda diqqətə çatdırılır ki, ötən ilin sentyabr ayında başlayan hərbi əməliyyatlar 44 gün davam etdi və Rusiyanın vasitəçiliyi ilə əldə olunan sülh razılaşması ilə başa çatdı. Azərbaycan 1990-cı illərdə itirdiyi ərazilərin böyük hissəsini geri qaytardı.

# Azərbaycan aliminin həmmüəllifi olduğu monoqrafiya Almaniyanın aparıcı beynəlxalq nəşriyyatı “Springer”də dərc olunub

**Bakı Dövlət Universitetinin kafedra müdiri, professor İsmayıl Əliyevin və Rusiya Elmlər Akademiyası Sibir bölməsinin A.E.Favorski adına İrkutsk Kimya İnstitutunun əməkdaşları akademik Boris Trofimov və Lyudmila Oparinanın həmmüəllifi olduqları “Aromatik tiollar və onların törəmələri” monoqrafiyası (Ismayil A. Aliyev, Boris A. Trofimov, Ludmila A. Oparina. “Aromatic Thiols and Their Derivatives” Springer, 2021) Almaniyanın aparıcı beynəlxalq elmi nəşriyyatı “Springer”də ingilis dilində çap olunub.**




BDU-dan AZƏRTAC-a bildirilib ki, bu monoqrafiya 2018-ci ildə Rusiyanın “Geo” Akademik nəşriyyatında (Novosibirsk) rus dilində nəşr olunmuş monoqrafiyanın genişləndirilmiş və təkmilləşdirilmiş variantıdır.

Professor İ.Əliyevin həmmüəllifi olduğu monoqrafiyada onun 50 il ərzində aromatik tiollar və onların törəmələri sahəsində apardığı fundamental elmi tədqiqat işlərinin əsas hissəsi öz əksini tapıb. Monoqrafiyada olan 91 irihəcmli cədvəllərin və 31 şəklin hamısı professorun 50 illik elmi zəhmətinin nəticələridir. Monoqrafiyada istifadə olunmuş 1105 ədəbiyyatdan 200-dən çoxu görkəmli alim İ.Əliyevin dünyanın müxtəlif kimya jurnallarında dərc etdirdiyi məqalələrinə istinadlardır. Yapon alimi S.Oaenin 1975-ci ildə rus dilinə tərcümə edilərək çap olunan “Kükürd üzvi birləşmələrin kimyası” monoqrafiyasından 45 il sonra dünyada ilk dəfə bu sahədə irihəcmli bu monoqrafiyanın nəşr olunmasını Azərbaycan kimya elminin növbəti uğuru hesab etmək olar.

Monoqrafiya aromatik tiolların və onların törəmələrinin - sulfidlərin, sulfoksidlərin, sulfonların, o cümlədən asil, tioasil, alkoksil, mürəkkəb efir, hidroksil, həmçinin halogenlərlə müxtəlif funksional əvəz olunmuş birləşmələrinin sintezi və fiziki-kimyasının aktual aspektlərinə həsr olunub. Bir sıra hallarda müqayisə üçün oksigen və selen üzvi törəmələri də sintez edilərək tədqiq olunub. Əsas diqqət həm ənənəvi klassik sintez üsullarına, həmçinin yeni, əsasən keçid materiallarının katalizator kimi tətbiq edilməklə yeni birləşmələrin sintezinə və alınmış maddələrin reaksiyagirmə qabiliyyətlərinin öyrənilməsinə yönəlib. Hər fəslin sonunda aromatik tiolların və onların törəmələrinin ən əhəmiyyətli nümayəndələrinin sintezi üsulları və ədəbiyyat siyahısı göstərilib. Kitabın əhəmiyyətli hissəsi nəzəri suallar - müxtəlif valentli kükürd atomlarının qonşu aromatik fraqmentlərlə və atomlarla quruluşdan asılı olaraq necə qarşılıqlı təsirdə olmaları və həm də kükürdün bu birləşmələrdə necə körpü rolu oynadığı tədqiq olunur. Konformasiya, spektral (NMR, İQ, UB, YKR), elektrokimyəvi və s. müasir fiziki-kimyəvi tədqiqat üsulları vasitəsilə alınan elmi nəticələr daha da dəqiqləşdirilib və genişləndirilib.

Nəhayət, kitabda aromatik tiolların və onların törəmələrinin dərman preparatları kimi, yüksək texnoloji materiallar, üzvü sintezdə başlanğıc ilkin birləşmələr kimi, analitik reagentlər, yağ və yanacaqlara aşqarlar kimi və s. sahələrdə əsas praktik tətbiq sahələri göstərilir.

Monoqrafiya kimyaçı-sintetiklər, fizika-üzvü kimya, polimerləşmə, farmakologiya və s. sahələrdə çalışan mütəxəssislərə ünvanlanıb. O, həmçinin mühəndis-texnoloqlar, biznesmenlər, elementar kükürdün saflaşdırılması ilə məşğul olanlar, müəllimlər, kimya fakültələrinin doktorantları və tələbələri üçün faydalı ola bilər.

# Mərkəzi Bank uçot dərəcəsini sabit saxlayıb

**“Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyəti uçot dərəcəsinin 6,25 faiz səviyyəsində dəyişməz saxlanılması haqqında qərar qəbul edib. Faiz dəhlizinin aşağı həddi 5,75 faiz, yuxarı həddi isə 6,75 faiz səviyyəsində saxlanılıb”.**

AZƏRTAC xəbər verir ki, bu barədə Mərkəzi Bankın sədri Elman Rüstəmov yanvarın 29-da faiz dəhlizinin parametrləri ilə bağlı keçirdiyi mətbuat konfransında deyib.

E.Rüstəmov qeyd edib ki, bu qərar ortamüddətli dövr üzrə inflyasiya və antiinflyasiya amillərinin tarazlaşması nəzərə alınaraq qəbul edilib. Pul siyasətinin dəyər baxımından yumşaldılmasında fasilə mövcud qeyri-müəyyənliklərin və uçot dərəcəsində dəyişmə potensialının qiymətləndirilməsi ilə bağlıdır.

Faiz dəhlizinin parametrlərinə dair növbəti qərarlar faktiki inflyasiya səviyyəsi və inflyasiya gözləntiləri, proqnoz horizontunda iqtisadi aktivliyin bərpa tempi, daxili və xarici risklərin reallaşması ehtimalları, onların maliyyə bazarlarına təsirləri nəzərə alınmaqla qəbul ediləcək.

### İnflyasiya prosesləri

Diqqətə çatdırılıb ki, rəsmi statistikaya görə, dekabrda 12 aylıq inflyasiya 2,6 faiz təşkil edib ki, bu da 2020-ci ilə proqnozlaşdırılan səviyyədən aşağıdır. İstehlak səbətinin əsas alt kateqoriyaları üzrə qiymət dəyişimində fərqli dinamika müşahidə olunur. İstehlak səbətinin ərzaq komponenti qiymət artımının formalaşmasında həlledici paya malik olmaqda davam edir. Ərzaq inflyasiyası son 12 ayda 4,6 faiz təşkil edib. Dünya ərzaq qiymətlərinin artması da ərzaq qiymətlərinə təsir edib. Qeyri-ərzaq məhsulları və xidmətlərin qiymətlərinin 12 aylıq artımı 1 faiz ətrafında olub. İnflyasiya gözləntiləri stabil olaraq qalır. Real sektor müəssisələri üzrə monitorinqin nəticələrinə görə, yanvarda ötən aya nəzərən inflyasiya gözləntiləri ticarət, tikinti və xidmət sektorlarında sabit səviyyədə qalıb. Sənaye sektorunda isə qiymət artımı gözləntisi qeydə alınıb.

Mərkəzi Bankın sədri deyib ki, yanvarda yenilənmiş proqnozlara görə inflyasiyanın 2021-ci ilin sonuna 4 faiz ətrafında formalaşacağı gözlənilir. İnflyasiya proqnozunun yuxarıya doğru təshih edilməsi stimullaşdırıcı fiskal siyasətin dəstəyi ilə məcmu tələbin artması gözləntiləri və birdəfəlik amillər nəzərə alınmaqla həyata keçirilib.

### Xarici sektor

Bildirilib ki, xarici balansın yaxşılaşması makroiqtisadi sabitliyin əsas lövbəri olan məzənnəni dəstəkləyir və inflyasiya gözləntilərinə sabitləşdirici təsir göstərir. COVID-19-a qarşı peyvəndləmə prosesinin başlanması qlobal iqtisadi bərpa ilə bağlı nikbinliyi artırmaqdadır. Beynəlxalq Valyuta Fondunun yanvar ayında açıqladığı proqnozlara görə, qlobal iqtisadi artımın 2021-ci ildə 5,5 faiz olacağı gözlənilir ki, bu da əvvəlki proqnoza nəzərən 0,3 faiz bəndi yüksəkdir. Lakin, ümumilikdə, pandemiyanın qeyri-bərabər sektoral təsirləri, bəzi ölkələrdə vaksinə məhdud çıxış, siyasi gərginliklərin mövcudluğu şəraitində qlobal iqtisadiyyat və qlobal bazarlardakı sabitliklə bağlı qeyri-müəyyənliklər qalır. Qiymətləndirmələrə görə, hələ 2022-ci ildə dünyanın bir sıra iqtisadiyyatlarında adambaşına gəlirin pandemiyadan əvvəlki səviyyəyə tam çatmayacağı gözlənilir.

Qlobal iqtisadi artım perspektivlərinə dair optimizm dünya neft bazarına müsbət təsir göstərməkdədir. Ötən toplantıdan bəri neftin qiyməti artıma meyilli olub. “Brent” markalı neftin orta qiyməti 2020-ci ildə 43 ABŞ dolları olduğu halda, bu rəqəm cari ilin yanvar ayının ötən dövründə 55 dollara yüksəlib.

Profisitli ticarət balansı şəraitində Azərbaycanın strateji valyuta ehtiyatları 2021-ci ilin yanvar ayında 0,3 faiz artaraq 51,4 milyard ABŞ dollarına çatıb.

E.Rüstəmov qeyd edib ki, bütövlükdə, xarici sektor göstəricilərinin yaxşılaşması, qəbul olunmuş makroiqtisadi çərçivə və ümumi daxili məhsulu üstələyən valyuta ehtiyatları makroiqtisadi sabitliyin əsas lövbəri olan məzənnənin dayanıqlığının əsas şərtidir.

### İqtisadi aktivlik

Mərkəzi Bankın sədri vurğulayıb ki, 2021-ci ildən başlayaraq məcmu tələbin artımı, o cümlədən istehlak və investisiya optimizminin güclənməsi inflyasiya proseslərinə təsir göstərmək potensialına malikdir. Sinxronlaşdırılmış antiböhran tədbirlərinin təsiri ilə qeyri-neft sektoru üzrə azalma tempi bir çox tərəfdaş ölkələrlə müqayisədə aşağıdır. Real sektorun monitorinqinin nəticələrinə görə, yanvar ayında biznes inamı indeksi ötən aya nəzərən tikintidə artım meyilli olub, qeyri-neft sənayesi, ticarət və xidmət sektorunda isə sabit olaraq qalıb.

2021-ci ildə iqtisadi artımın tədricən bərpa olunacağı gözlənilir. Buna, ilk növbədə, stimullaşdırıcı fiskal siyasət, yumşaq monetar şəraitin qalması, işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri və təxirə salınmış tələbin reallaşması dəstək verəcək. Xarici tələbin artması və vaksinləşmənin təsiri ilə epidemioloji vəziyyətin yaxşılaşacağı gözləntiləri də artım perspektivlərinə dair nikbinlik yaradır.

### Monetar şərait

“Monetar şəraitin yumşaq olaraq qalacağı gözlənilir. Ötən iclasdan bəri pul bazarının müxtəlif seqmentlərində qısamüddətli alətlər üzrə faizlərin azalması bir tərəfdən Mərkəzi Bankın yumşaq pul siyasəti, digər tərəfdən isə bank sistemində likvidliyin artması ilə izah edilir. Makroiqtisadi sabitlik hədəfləri çərçivəsində dövriyyədəki likvidliyin daha effektiv idarə edilməsi məqsədilə 2021-ci ilin əvvəlindən Mərkəzi Bankın sterilizasiya alətlərinin çeşidi artırılıb. Belə ki, 28 günlük notlarla yanaşı, 84 günlük, 168 günlük və 252 günlük notların yerləşdirilməsi üzrə hərracların keçirilməsinə başlanması barədə qərar qəbul edilib”, - deyə E.Rüstəmov vurğulayıb.

Qeyd edilib ki, pul təklifi başlıca olaraq vahid xəzinə hesabının qalığının dəyişməsindən təsirlənir. Son illərdə olduğu kimi, 2021-ci ildə də fiskal kanalların pul bazasına artırıcı təsir göstərəcəyi gözlənilir. Pandemiyadan zərərçəkmiş biznes və ev təsərrüfatlarına, o cümlədən bank sisteminə dəstək məqsədilə makroprudensial güzəştlərin 2021-ci ilin aprel ayına qədər uzadılması da monetar şəraitə, xüsusilə də kredit aktivliyinə əlavə yumşaldıcı təsir göstərir.

### Risklər balansı

Mərkəzi Bankın sədri deyib: “İnflyasiyaya artırıcı təsir edən amillərin rolu ötən toplantıdan bəri artsa da, risklər balansı tarazlıdır və inflyasiyanın hədəf intervalında qalacağını deməyə imkan verir. Ortamüddətli proqnoz horizontunda inflyasiyaya azaldıcı və artırıcı təsir göstərən amillər bir-birini balanslaşdırır. Artırıcı təsirlərə, ilk növbədə, ilin ikinci yarısından başlayaraq iqtisadi aktivliyin yüksəlməsi gözləntiləri aiddir. Həyata keçirilən stimullaşdırıcı fiskal siyasət və yumşaq monetar şəraitin mövcudluğu, təxirə salınmış tələbin reallaşması iqtisadi aktivliyin bərpasını dəstəkləyir. Ortamüddətli proqnoz horizontunda bəzi daxili və xarici xərc amillərinin də qiymətlərə təsirləri istisna olunmur. Eyni zamanda qlobal əmtəə və maliyyə bazarlarında kövrəkliklər inflyasiya gözləntilərinə təsir potensialını saxlayır. Sabitləşdirici amillərə, ilk növbədə, qəbul edilmiş makroiqtisadi çərçivə aiddir. Cari il üzrə dövlət büdcəsində nəzərdə tutulan neft transfertləri və strateji valyuta ehtiyatları bu çərçivəni dəstəkləyir. Son zamanlar neftin qiymətinin yüksəlmə meyli ilə xarici sektor göstəricilərinin yaxşılaşmasının məzənnə ilə bağlı gözləntilərə müsbət təsir edəcəyi ehtimal olunur. Pandemiya dövründə yaranmış qənaətli istehlak davranışlarının mümkün davamı da ortamüddətli dövrdə inflyasiyaya azaldıcı təsir edə bilər”.

Faiz dərəcəsi ilə bağlı növbəti qərarlar inflyasiyanın dinamikası və proqnozunun hədəfə uyğunluğu, fiskal və monetar siyasətlərin təsirləri, istehlak tələbinin bərpa səviyyəsi nəzərə alınmaqla veriləcək.

Bu qərar yanvarın 29-dan qüvvəyə minir. Mərkəzi Bankın İdarə Heyətinin faiz dəhlizinin parametrləri barədə növbəti qərarı martın 19-da ictimaiyyətə açıqlanacaq.

# IDEA İctimai Birliyi Ermənistan tərəfindən ekoloji terrora məruz qalmış ərazilərin yenidən canlandırılması istiqamətində işlər görəcək

**Otuz ilə yaxın davam edən erməni işğalının fəsadlarını əyani görmək hamımızı sarsıtdı. Meşələrin amansız məhvi, suların çirkləndirilməsi, təbii sərvətlərin istismarı və digər cinayətlər onu göstərir ki, ölkəmizə və ümumiyyətlə, planetimizə qarşı ekoloji terror törədilib.**



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva təşkilata Ermənistan tərəfindən ekoloji terrora məruz qalmış ərazilərin yenidən canlandırılması istiqamətində tədbirlər görməyə tapşırıq verib. İlk mərhələdə təşkilat işğaldan azad olunmuş ərazilərdəki təbii sərvətlərin qiymətləndirilməsi istiqamətində tədbirlər görəcək. Növbəti və ən çətin addım isə həmin ərazilərin bərpasıdır. Həmin prosesə beynəlxalq təşkilatların, tərəfdaşlarımızın, o cümlədən gənclərimizin cəlb olunması nəzərdə tutulur.

AZƏRTAC xəbər verir ki, bunu IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov işğaldan azad olunmuş ərazilərdəki ekoloji durum, görülmüş və görüləcək işlərlə bağlı keçirilən brifinqdə deyib.

İcraçı direktor bildirib ki, IDEA İctimai Birliyi, Azərbaycan Gənclər Fondunun təşkilatçılığı və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə “Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsində iştirakı” layihəsinə start verilir. Bu xüsusda Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən bioloji müxtəliflik, geologiya, su ehtiyatları, meşələrin qorunması, hidrometeoroloji və monitorinq xidməti, topoqrafiya və xəritəçəkmə sahələrində aparılacaq işlərdə gənclərin yaxından iştirakı nəzərdə tutulur. Layihənin məqsədi həmin ərazilərə dəymiş ekoloji zərərin dəqiq qiymətləndirilməsi, peşəkar mütəxəssislərlə işləməklə gənc ekoloqların təcrübəsinin artırılması, ekoloji terrora məruz qalmış ərazilərin statistik rəqəmlərinin dünyaya çatdırılması və əldə olunmuş nəticələr əsasında bərpa prosesinə töhfə verilməsidir: “Ümid edirik ki, ölkəmizə vurulmuş ekoloji ziyan qiymətləndirildikdən sonra təsirə məruz qalmış bütün ərazilərin bərpası həyata keçiriləcək. Azərbaycan gəncləri də bu məsələyə mühüm töhfəsini verəcəklər. Hesab edirəm ki, dünənki səfərimiz bu prosesin başlanğıc nöqtəsidir”, - deyə S. Şükürov əlavə edib.

# Ermənistanda hakimiyyət uğrunda yeni savaş başlayır

*Əvvəli 1-ci səh.*

O vurğlayıb ki, Ermənistanda etiraz fəallığı bu yaz arta bilər və hakimiyyət müxalifətin əvvəldən siyasi mübarizə metodlarını seçdiyinə sevinməlidir, lakin siyasi proseslərə ümid ölsə, bütün proses başqa bir yönə çevriləcək: “Ermənistan cəmiyyətində 200-300 min insan kökündən silinib. İkinci inqilab ölkə üçün problemli olacaq. Ancaq hakimiyyət dəyişikliyinə gedən siyasi yol ümidi tükənsə, yazda insanlar yenidən küçələrə axışacaq və etiraz dalğası əvvəlkindən daha güclü olacaq”.

Müharibə canisi, vaxtilə çevrilişlə hakimiyyətə gələn R.Koçaryan onu da deyib ki, indiki vəziyyətdə seçkiləri təşkil etmək olduqca təhlükəlidir, amma səlahiyyətlilər bunu anlamırsa və həyata keçirilməsində israr edirsə, müxalifət bu kampaniyada iştirak etməlidir.

Onu da qeyd edək ki, müharibədəki məğlubiyyətdən sonra Ermənistanda bütün sahələri bürüyən tənəzzül sürətlə dərinləşməkdədir. Problemli sahələrdən biri də ordudur. Belə ki, orduda baş verən cinayətlərin sayı bitib tükənmir. Ölkə rəhbərliyi ordu cinayətlərini gizlətməyə çalışsa da, mümkün olmur. Çünki dərhal sosial şəbəkələrdə orduda yaşanan insidentlərlə bağlı informasiyalar yayılır.

Son olaraq sosial şəbəkələrin erməni seqmentində məlumat yayılıb ki, əşya, əmlak, ərzaq, yanacaq sürtkü materiallarının, eləcə də tibbi ləvazimatların qıtlığı ilə üzləşən şəxsi heyət arasında oğurluq, intizamsızlıq və davalar baş verir. Məsələn, “Telegram” kanallarından birində yazılıb ki, bu günlərdə Ermənistanın Koxb yaşayış məntəqəsində yerləşən 543-cü əlahiddə motoatıcı alayda insident yaşanıb. Hərbi hissədə gənc əsgərlər və daha çox xidmət edən əsgərlər arasında kütləvi dava baş verib. Hadisəyə səbəb gənc əsgərlərə verilən təzə əşyaların əllərindən alınaraq əvəzinə köhnələrin, hətta istifadəyə yararsız olanların verilməsidir. Faktla bağlı Ermənistan ordusunun 3-cü korpusunun qərargahından bir neçə yüksəkrütbəli zabit təcili olaraq Koxb məntəqəsinə gələrək hadisə ilə bağlı araşdırma aparıb. Hadisə hüquq mühafizə orqanlarından gizlədilsə də, faktla bağlı zabitlər də daxil olmaqla bir neçə nəfərin cəzalandırıldığı bildirilir. Bir neçə əsgərin isə xidmət yerinin dəyişdirliməsi barədə göstəriş verilib.

İndi Ermənistanda belə bir fikir hakimdir ki, orduda zabitlər əsgərlərə vətənin müdafiəçiləri kimi deyil, şəxsi varlanmalarını təmin edən obyekt kimi baxırlar. Hərbi hissələrin təminatındakı problemlər isə kriminal fəsadlar yaradır.

Ermənistanda tək orduda deyil, bütün sahələrdə oğurluq, cinayətlər, çəkişmələr baş alıb gedir. Əslində, işğal siyasəti yürüdən, sivil dövlətçilik prinsiplərindən uzaq olan bir ölkənin ordusu başqa cür ola da bilməzdi.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Dövlət Sərhəd Xidməti qanunsuz əməllərin qarşısını almışdır

**Dövlət sərhədinin təhlükəsizliyinin təmin edilməsi, narkotik vasitələrin və silah-sursatın qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri nəticəsində son günlərdə 8 kq 920 qram narkotikə bənzər maddənin ölkə ərazisinə qanunsuz yolla gətirilməsinin qarşısı alınmış, eyni zamanda 3 ədəd gizlədilmiş odlu silah aşkar olunmuşdur.**





Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzinin verdiyi məlumata görə, yanvar ayının 14-də Dövlət Gömrük Komitəsinin əməkdaşları ilə birgə Sərhəd Qoşunlarının “Göytəpə” sərhəd dəstəsinin xidməti ərazisində Cəlilabad rayonunun Kürünc kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində 1 ədəd sahibsiz bağlama aşkar edilmişdir. Baxış zamanı bağlamada çəkisi 8 kiloqram 350 qram narkotikə (5 kq 900 qram “tiryək”, 1 kq 700 qram “metamfetamin” və 750 qram “heroin”) oxşar maddənin olması müəyyənləşdirilmişdir.

Yanvar ayının 26-da Xəzər dənizinin cənub istiqamətində dövlət sərhədinin mühafizəsi xidmətində olan sərhəd gözətçi gəmisi tərəfindən dəniz istiqamətləndirici nişanına bağlanılmış 1 ədəd torbanın içərisində çəkisi 570 qram “marixuana”ya oxşar maddə və 2 blok “Marllboro” markalı siqaret aşkarlanaraq götürülmüşdür.

Ay ərzində Dövlət Sərhəd Xidməti və Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən sərhədboyu ərazilərdə həyata keçirilmiş tədbirlər nəticəsində Astara rayonunun Alaşa kəndinin ərazisində su kanalında gizlədilmiş 1 ədəd Almaniya istehsalı olan 8 mm çaplı “Perfecta” markalı tapança, Qəbələ rayonunun Tikanlı kəndinin ərazisində “Qaraçay” çayının sahilində yerləşən meşəlikdə 1 ədəd 16 mm çaplı təklüləli ov tüfəngi və ona məxsus 6 ədəd patron, Ağstafa rayonunun Sadıqlı kəndinin ərazisində “Qarayazı” dövlət meşə qoruğu massivində 1 ədəd 16 mm çaplı qoşalüləli ov tüfəngi aşkar olunaraq götürülmüşdür.

Bütün faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***“Azərbaycan”***

# Uşaq Paralimpiya Komitəsi ötən il reallaşdırdığı təşəbbüsləri açıqlayıb

## Komitə “Azercell”in dəstəyi ilə uşaqları sevindirən layihələr təqdim edib

**2014-cü ildən etibarən “Azercell”in dəstəyilə fəaliyyət göstərən Uşaq Paralimpiya Komitəsi (UPK) pandemiya şəraitində belə fəaliyyətini dayandırmayıb.**

2020-ci ildə komitənin məşqçiləri virtual təlimlər təşkil edərək uşaqlarla onlayn qaydada məşğul olublar. Bu da balaca idmançıların aktivliyini saxlamağa, onlarda ruh düşkünlüyünün yaranmasının qarşısının alınmasına kömək edib.

Məhdudiyyətlərə baxmayaraq, 2020-ci ildə komitənin həm də regional bölmələri fəaliyyətə başlayıb. Belə ki, ötən il UPK-nin Lənkəran, Ağcabədi, Gəncə və Qusardakı şöbələri yaradılıb. Burada cüdo, pauerliftinq, dağ xizəyi və snoubord idman növləri üzrə seksiyalar fəaliyyətə başlayıb və ilkin seleksiya işləri aparılıb. Artıq bu bölgələr üzrə komitəyə üzv olan uşaqlarla məşqlərə də başlanılıb.

COVID-19 virusunun yayılması ilə əlaqədar ölkəmizdə bütün kütləvi tədbirlər təxirə salındığından, ötən il uşaq paralimpiyaçılar arasında ənənəvi yekun yarışma baş tutmayıb. Lakin Uşaq Paralimpiya Oyunlarının təşkili üçün nəzərdə tutulan vəsait uşaqlar üçün yeni idman alətlərinin - boccia üzrə idmançılara yüksək keyfiyyətli topların alınmasına yönəldilib.

2020-ci ildə Uşaq Paralimpiya Komitəsinin fəaliyyətindəki yeniliklərdən biri də ilk dəfə olaraq uşaqlar üçün qış idman növlərinin - dağ xizəyi və snoubord əlavə olunmasıdır. İndiyədək Uşaq Paralimpiya Komitəsi tərəfindən 8 idman növü üzrə məşqlər keçirilirdi. Bura cüdo, üzgüçülük, para-taekvando, pauerliftinq, boccia, qolbol, stolüstü tennis, əlil arabasında idman rəqsləri daxildir.

Komitənin işindəki yeniliklərdən biri də uşaq paralimpiyasına daha çox idmançı cəlb etmək məqsədilə valideynlərdən ibarət “Valideyn klubu”nun yaradılmasıdır.

2020-ci il ərzində sağlamlıq imkanları məhdud daha 40-a yaxın uşaq UPK-nin sıralarına qatılıb. Ümumiyyətlə, UPK-nin səyi ilə 7 ildən çox müddətdə fiziki məhdudiyyətli 160-dan artıq uşaq və yeniyetmənin 10 idman növü üzrə kütləvi idman tədbirlərində, yerli və beynəlxalq səviyyəli yarışlarda fəal iştirakına nail olunub.

Uşaq Paralimpiya Komitəsi beynəlxalq təcrübədə ilk dəfə olaraq 2013-cü ildə Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin nəzdində yaradılıb. Komitə sağlamlıq imkanları məhdud uşaqların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiyasına yardım edir. “Azercell Telekom” MMC bu mühüm missiyanı dəstəkləməklə ölkəmizdə uşaqların fiziki sağlamlığının və inkişafının təmin olunmasına öz töhfəsini verir.

# Koronavirusdan 399 nəfər sağalıb, 142 nəfər isə yoluxub

**Azərbaycan Respublikasında koronavirus infeksiyasından 399 nəfər müalicə olunaraq sağalıb, 142 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 6 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 229 min 935 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 222 min 553 nəfər müalicə olunaraq sağalıb, 3119 nəfər vəfat edib. Aktiv xəstə sayı 4263 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 394 min 476 test aparılıb. Dünənki test sayı isə 7342-dir.




# Wood Mackenzie: 2021-ci ildə qlobal neft tələbatı artacaq



Koronavirus infeksiyasından vaksinlərin paylanması və dünya iqtisadiyyatının bərpası fonunda 2021-ci ildə neftə olan qlobal tələbat ötən illə müqayisədə gündəlik 6,3 milyon barel artaraq 96,7 milyon barelə çatacaq. Belə proqnozla Şotlandiyadakı Wood Mackenzie tədqiqat şirkəti çıxış edib.

Şirkətdə hesab edirlər ki, bu il neft-qaz sənayesi bərpa olunan enerji mənbələrinə investisiyaları artıracaq.

# ÜST: Afrikanı koronavirus pandemiyasının yeni dalğası bürüyəcək



Afrika, yeni və bəlkə də koronavirus pandemiyasının daha dəhşətli dalğası ilə üzləşə bilər. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) nümayəndələri xəbərdarlıq edirlər. Təşkilatın Afrika üzrə regional direktoru Matshidiso Moeti bildirib ki, ilk dəfə CAR-da aşkar olunan ştamm üstünlük təşkil edir və bir sıra Afrika ölkələrində xəstəlik hallarının rekord sayda artmasına təsir göstərir. Yalnız son bir həftə ərzində qitədə koronavirusa yoluxmanın 175 min yeni halı və 6,2 min ölüm qeydə alınıb.

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Tibb İdarəsi 2021-ci ildə şəkər ölçən aparat üçün striplərin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: **31.12.2021-ci il tarixə kimidir.**

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərsiniz.

Əlaqələndirici şəxs: **İskəndərov Nadir.**

Ünvan: **Bakı şəhəri, Azadlıq prospekti, 161.**

**Tender 1 (bir) LOT üzrə keçiriləcək.**

**LOT 1 - Şəkər ölçən aparat üçün striplərin satın alınması;**

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT üzrə 200 (iki yüz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Hesab: AZ88CTRE00000000000002078508**
**VÖEN: 1700341621**
**VÖEN: 1401555071**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;*
*4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
*- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **22.02.2021-ci il saat 12:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **02.03.2021-ci il saat 14:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **03.03.2021-ci il saat 12:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Tibb İdarəsi 2021-ci ildə reaktivlərin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: 31.12.2021-ci il tarixə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərsiniz.

Əlaqələndirici şəxs: İskəndərov Nadir.

Ünvan: Bakı şəhəri, Azadlıq prospekti, 161.

Tender 1 (bir) LOT üzrə keçiriləcək.

LOT 1 - Reaktivlərin satın alınması;

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT üzrə 200 (iki yüz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Hesab: AZ88CTRE00000000000002078508**
**VÖEN: 1700341621**
**VÖEN: 1401555071**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;*
*4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
*- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;*
*4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **02.03.2021-ci il saat 14:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **22.02.2021-ci il saat 12:00-a** qədər elektron portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **03.03.2021-ci il saat 12:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Tibb İdarəsi 2021-ci ildə narkotik testlərin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: **31.12.2021-ci il tarixə kimidir.**

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərsiniz.

Əlaqələndirici şəxs: **İskəndərov Nadir.**

Ünvan: **Bakı şəhəri, Azadlıq prospekti, 161.**

**Tender 1 (bir) LOT üzrə keçiriləcək.**

**LOT 1 - Narkotik testlərin satın alınması;**

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT üzrə 200 (iki yüz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Hesab: AZ88CTRE00000000000002078508**
**VÖEN: 1700341621**
**VÖEN: 1401555071**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;*
*4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
*- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;*
*4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **02.03.2021-ci il saat 14:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **22.02.2021-ci il saat 12:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **03.03.2021-ci il saat 12:00-da** elektron portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun "Məhkəmə Mübahisələri ilə iş üzrə Mərkəzi filialı üçün ofis sahəsinin icarəsi xidmətinin satın alınması" məqsədilə keçirilmiş açıq tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş qiymətləndirmənin nəticəsində **"Çinar Park" QSC** qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

*Nadirulla Həmdulla oğlu Ağayev və "Rəndə 1" MTK arasında 2007-ci ildə bağlanmış müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 02 noyabr 2020-ci il tarixdə vahid satınalma portalında elan edilmiş "İstismarda olan Cisco avadanlıqları üçün zəmanət və texniki dəstək xidmətinin satın alınması" üzrə keçirilmiş açıq tender prosedurunun qalibi **"İNFİNİTECH" MMC** müəyyən edilmişdir.

**"Aztelekom" MMC** ilə **"İNFİNİTECH" MMC** arasında 11 yanvar 2021-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 15 dekabr 2020-ci il tarixli nömrəsində və dövlət satınalmalarının vahid internet Portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən onlayn media monitorinq xidmətinin satın alınması üzrə dərc edilmiş elan əsasında keçirilən kotirovka sorğusunda **"Kalibri Media Pro" MMC** qalib olmuşdur.

Qalib şirkətlə 25 yanvar 2021-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyininm Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən 29.01.2021-ci il tarixdə elan edilmiş Baş Dövlət Yol Polisi İdarəsinin www.dyp.gov.az saytının dəstəklənməsi, saytda yerləşdirilən materialların ingilis dilinə tərcümə olunması, "On-line" müraciət moduluna texniki dəstəyin göstərilməsi, www.dyp.gov.az saytının əlilliyi olan şəxslər üçün versiyasının hazırlanması və xüsusi karantin rejimi dövründə etibarnamə əsasında nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi ilə əlaqədar qeydiyyat hərəkətlərinin aparılması üçün icazə proqram modulunun hazırlanması və dyp.gov.az saytında yerləşdilirilməsi ilə bağlı işlərin satın alınması üzrə kotirovka müsabiqəsi Tender komissiyanın qərarına əsasən ləğv edilmişdir.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev və Elman Məmmədov Milli Məclisin deputatı Anar Məmmədova atası

**İLYAZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağdamdan Vaqif Həsənov Naiq Səmədova oğlu

**ANARIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağdamdan Vaqif Həsənov

**ZƏFƏR ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Dövlət Neft Şirkətinin sosial məsələlər üzrə vitse-prezidenti Bədəl Bədəlova qardaşı

**ÜMİDVAR BƏDƏLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Asif Heydərova atası

**ƏLİ HEYDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının katibliyi Milli Məclisin deputatı Anar Məmmədova atası

**İLYAZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıtdan Zakir Fərəcov Azərbaycanın Belçika Krallığında və Lüksemburq Böyük Hersoqluğundakı fövqəladə və səlahiyyətli səfiri, Avropa İttifaqı yanında nümayəndəliyinin rəhbəri Fuad İsgəndərova atası

**ELDAR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sosial məsələlər üzrə vitse-prezidenti Bədəl Bədəlova qardaşı

**ÜMİDVAR BƏDƏLOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin deputatı Anar Məmmədova atası

**İLYAZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5074
Sifariş 184
Qiyməti 40 qəpik